Xalqın qəzeti!

# Xalq qəzeti

№ 186 (30880) 3 sentyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Prezident İlham Əliyev Çinə işgüzar səfəri ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində Çinə işgüzar səfəri ilə bağlı video paylaşıb.**

AZƏRTAC videonu təqdim edib.



# Azərbaycan regionda Çinin etibarlı tərəfdaşıdır

## Prezident İlham Əliyevin Çinə işgüzar səfəri

### Azərbaycan lideri Tiencin şəhərində “Powerchina group” şirkətlər qrupunun icraçı vitse-prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Çinin Tiencin şəhərində “Powerchina group” şirkətlər qrupunun icraçı vitse-prezidenti Xı Yınfen ilə görüşüb.**

Görüşdə şirkətin ölkəmizdə uğurla fəaliyyət göstərdiyi qeyd olunub.

Yaşıl enerji, ətraf mühitin mühafizəsi, su resurslarının idarəolunması, çirkab suların təmizlənməsi, elektroenergetika və yaşıl hidrogen layihələri, tikinti, avadanlıq istehsalı sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib.

Eyni zamanda, Günəş və külək elektrik stansiyalarının inşası, “ağıllı enerji sistemləri”nin inteqrasiyası və yerli mütəxəssislərin hazırlanması üzrə əməkdaşlıqla bağlı perspektivlərə dair fikir mübadiləsi aparılıb.

## Naxçıvandan başlanan xilaskarlıq missiyasının ilk səhifəsi



Səhifə ⇨ 5

## Azərbaycan çinlilər üçün cəlbedici məkandır

*Turizmin inkişaf strategiyası iqtisadi fayda əldə etməyi hədəfə alıb*

**Azərbaycan və Çin arasında münasibətlər strateji əməkdaşlıq səviyyəsinə yüksəlib və bu əməkdaşlıq dinamik, çoxşaxəli və qarşılıqlı faydalı xarakter daşıyır. İki ölkənin maraqlarına cavab verməklə yanaşı, həm də sülh, sabitlik, sosial-iqtisadi tərəqqiyə xidmət edir.**

(ardı 6-cı səhifədə)

## “Lemkinçilik” – Cənubi Qafqazda sülhə demarş

***Yaxud Azərbaycana qarşı qərəzin “soyqırımı” uydurması***




**Diqqətli oxucularımız Lemkin Soyqırımının Qarşısının Alınması İnstitutu (Lemkin Institute for Genocide Prevention), yaxud qısaca Lemkin İnstitutu adlanan təşkilatın mövcudluğundan xəbərdardır. Qurumun indiyədək özündə Bakı-İrəvan ziddiyyətlərinə münasibəti əks etdirən açıqlama və bəyanatlarının mövcudluğundan da həmçinin.**

(ardı 6-cı səhifədə)

## Zəngəzur dəhlizi regiona yeni diplomatik fəallıq gətirir



Səhifə ⇨ 4

## Bakının siyasi qətiyyəti: Minsk qrupunun aqibəti



Səhifə ⇨ 7

## İslamabadın İrəvanla dialoqu 8 avqust bəyannaməsinin gerçəkləşməsinə yönəlib



## *Pakistan Qafqazda sülh prosesini fəal dəstəkləyir*

**Bu günlər, demək olar ki, ermənilərin bütün yazılı və elektron mediası Pakistanın xarici işlər naziri İshaq Darın “X” sosial şəbəkəsində ölkəsi ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulduğunu elan etdiyi səhifəsinə böyük sevinclə müraciət edir və səxavətlə tirajlayırlar.**

(ardı 4-cü səhifədə)

## Azərbaycanın “yaşıl” gələcəyinin yeni hədəfləri



Səhifə ⇨ 8

## Ət bazarında bahalaşma ciddi narahatlıq doğurur



Səhifə ⇨ 9

# Prezident İlham Əliyev Tiencin şəhərində “China National Chemical Engineering” şirkətinin sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Çinin Tiencin şəhərində “China National Chemical Engineering” (CNCEC) şirkətinin sədri Mo Dinqqı ilə görüşüb.**



Söhbət zamanı Azərbaycanla şirkət arasında neft-kimya sənayesi, neft emalı fəaliyyəti və neft-kimya məhsullarının istehsalı sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

“China National Chemical Engineering” şirkətinin sədri Azərbaycanda əlverişli investisiya mühitinin olduğunu qeyd etdi.

Sonda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə Çinin Milli Kimya Mühəndisliyi və Tikinti Korporasiyası “Seven LTD” arasında imzalanmış Çərçivə Sazişinin dövlətimizin başçısının və şirkətin sədrinin iştirakı ilə mübadiləsi oldu. Sənəd Azərbaycanda və üçüncü ölkələrdə birgə layihələrin icrasını nəzərdə tutur.



# Azərbaycan lideri Pekinə gəlib

**Sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Çinin Tiencin şəhərindən qatarla paytaxt Pekinə gəliblər.**







Dövlətimizin başçısı və birinci xanım Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş tədbirlərdə iştirak edəcəklər.

***AZƏRTAC***

# Vyetnam Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab Lıonq Kıonqa

**Hörmətli cənab Prezident,**

Vyetnam Sosialist Respublikasının müstəqilliyinin 80-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda dost Vyetnam xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Böyük inkişaf yolu keçmiş Vyetnam bu gün bütün sahələrdə sanballı nailiyyətlər əldə etmiş və uğurlara imza atmışdır.

Xoş ənənələrə əsaslanan Azərbaycan-Vyetnam əlaqələrinin inkişaf səviyyəsi məmnunluq doğurur. May ayında Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın Azərbaycana dövlət səfəri ikitərəfli əlaqələrimizin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Səfər çərçivəsində bir sıra istiqamətlər üzrə imzalanmış sənədlər, xüsusilə də “Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat” Azərbaycan-Vyetnam əlaqələrini daha yüksək pilləyə qaldırdı.

Hazırda ölkələrimiz arasında iqtisadiyyat, ticarət, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər sahələr üzrə böyük əməkdaşlıq potensialı mövcuddur. Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Biz sağlam təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimizi bundan sonra da inkişaf etdirmək əzmindəyik.

Əminəm ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Vyetnam arasında əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Vyetnam xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 avqust 2025-ci il**

# Çinin Mərkəzi Televiziyası Tiencində olmuş birinci xanımlarla bağlı reportaj yayımlayıb

**Çin Mərkəzi Televiziyası – CCTV sentyabrın 1-də Tiencin şəhərində “Şanxay Əməkdaşlıq Təşkilatı plyus” formatında keçirilən görüşdə iştirak edən dövlət və hökumət başçılarının xanımlarının Hayha çayında gəmi gəzintisi ilə bağlı reportaj yayımlayıb.**

Reportajda Çin Xalq Respublikasının birinci xanımı Pen Liyuanın Sammitin iştirakçısı olan xarici ölkə liderlərinin xanımlarını Tiencin şəhərində çayda gəzintiyə dəvət etdiyi diqqətə çatdırılıb.

Bildirilib ki, gəmi gəzintisi zamanı qonaqlar Tiencinin tarixi və inkişafı barədə ətraflı məlumat əldə ediblər.

Reportajda Pen Liyuanın və qonaqların sahil mənzərələrinə tamaşa etdikləri, ənənəvi üçsimli musiqi alətinin ifasını dinlədikləri, səmimi söhbətlər apardıqları və göyərtədə xatirə şəkli çəkdirdikləri xüsusi qeyd olunub. Diqqətə çatdırılıb ki, qonaqlar Çinin ənənəvi mədəniyyətini və müasir inkişafını yüksək qiymətləndiriblər.

***XQ***

# Cenevrədə mülki müdafiə əməkdaşlığı müzakirəsi

**Mənzil-qərargahı Cenevrə şəhərində yerləşən Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Baş katibi Ərgüc Kələntərli İsveçrə Konfederasiyasının Cenevrədəki BMT bölməsi və digər təşkilatlar yanında daimi nümayəndəsi, eyni zamanda, BMT-nin İnsan Hüquqları Şurasının Prezidenti Yürq Lauber ilə görüşüb.**



Görüş zamanı Baş katib təşkilatın Cenevrədə fəaliyyətinə göstərilən dəstəyə görə İsveçrə hökumətinə təşəkkürünü bildirib, BMMT adından ev sahibi ölkə ilə mövcud tərəfdaşlığı yüksək qiymətləndirib. Ərgüc Kələntərli BMMT ilə İsveçrənin aidiyyəti qurumları arasında uzunmüddətli və qarşılıqlı faydalı əməkdaşlığın vacibliyini vurğulayıb. Öz növbəsində Yürq Lauber mülki müdafiənin qlobal təhlükəsizlik və dayanıqlı inkişaf kontekstində artan əhəmiyyətini qeyd edib.

Görüşdə, həmçinin əməkdaşlıq perspektivləri və beynəlxalq mülki müdafiə şəbəkəsinin davamlı tərəfdaşlıq əsasında gücləndirilməsi məsələlərinə dair fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan – Braziliya siyasi məsləhətləşməsi



**Sentyabrın 1-də Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov Braziliya Federativ Respublikasına səfər edib.**

Səfər zamanı Brazilia şəhərində Azərbaycanın və Braziliyanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti, beşinci raundu keçirilib.



Nümayəndə heyətlərinə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Braziliya tərəfindən isə xarici işlər nazirinin birinci müavini Maria Laura de Roşa başçılıq edib.

Səfər çərçivəsində nazir müavini Braziliyanın Vitse-prezidenti Jeraldo Alkmin tərəfindən qəbul olunub. Görüşdə J.Alkmin ötən ilin noyabr ayında COP29-da iştirak edən Braziliya nümayəndə heyətinin rəhbəri qismində ölkəmizə səfəri və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının əhəmiyyətini qeyd edib.

İki ölkə arasında çoxtərəfli və xüsusilə "COP Üçlüyü" formatında həyata keçirilən əməkdaşlıqdan razılığını ifadə edən Alkmin ölkəmizin qlobal iqlim gündəliyinə töhfələrini yüksək qiymətləndirib.

Görüş çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Braziliya Federativ Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in imzalanma mərasimi keçirilib.

***XQ***

# Azərbaycan – Türkiyə əmək və sosial müdafiə əməkdaşlığı

**Ankarada Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın 12-ci iclası keçirilib.**



İclasdan əvvəl əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev və Türkiyənin əmək və sosial müdafiə naziri Vedat İşıkhanın görüşü olub.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən Birgə Daimi Komissiyanın iclasında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səyləri ilə qardaş ölkələrimiz arasında münasibətlərin daim inkişaf etdiyi və 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi vurğulanıb.

İclasda gələcək birgə fəaliyyət istiqamətləri müzakirə olunub. Həmçinin qeyri-formal məşğulluğun qarşısının alınması, əməyin mühafizəsi, peşə hazırlığı, pensiya təminatı, rəqəmsal xidmətlərin tətbiqi və s. sahələrdə qarşılıqlı təcrübə və məlumat mübadilələrinin davam etdirilməsinin əhəmiyyəti qeyd edilib.

Anar Əliyev və Vedat İşıkhan keçirdikləri brifinqdə Komissiyanın iclasının yekunları barədə məlumat verib, ortaq maraq doğuran sahələrdə gələcək əməkdaşlıq istiqamətlərinin müəyyən edildiyini diqqətə çatdırıblar.

Sonra nazirlər Birgə Daimi Komissiyanın 12-ci iclasının Protokolunu imzalayıblar.

# Milli Məclis komissiyasının açıqlaması

**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsindən sonra Rusiyadan Azərbaycana qarşı kütləvi informasiya kampaniyası ilə bağlı bəyanat yayıb.**

***Açıqlamada bildirilir ki, avqustun 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsi yayılandan dərhal sonra Rusiya Federasiyası ərazisindən ölkəmizə qarşı kütləvi surətdə informasiya kampaniyasına start verilib:*** "Monitorinq zamanı müəyyən olunub ki, aparıcının Zəngəzur dəhlizi ilə bağlı sualına Azərbaycan Prezidentinin tarixi faktlara əsaslanan cavabı kontekstdən çıxarılaraq saxtalaşdırılmış və ya təhrif olunmuş formada rus oxucusuna təqdim edilir. Rusiya cəmiyyətində anti-Azərbaycan təbliğatını alovlandırmaq məqsədilə təşkil edilən kampaniya televiziya kanalları və xəbər saytları, sosial media platformaları və müəyyən təsiretmə roluna malik radikal mövqeli şəxslər vasitəsilə aparılır.

***Bəyanatda qeyd edilir ki, Rusiya ərazisində fəaliyyəti qadağan edilmiş və məhdudlaşdırılmış feysbuk, instaqram və "X" kimi platformalardan, habelə digər ölkə vətəndaşlarının adından yaradılan sosial media profillərindən və botlardan da geniş istifadə olunduğu müşahidə edilib:*** "Kampaniyada diqqət çəkən digər bir element isə Azərbaycanın sosial media seqmentinin hədəfli reklamlar vasitəsilə seçilməsi və orada ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı təhdidedici fikirlərin yer almasıdır. Belə ikrah doğuran kampaniyaların Azərbaycanda ictimai rəyə heç bir təsiri yoxdur. Bu cür fəaliyyətlər yalnız Rusiya cəmiyyətini yalan faktlara söykənərək qızışdırmağa, qonşu dövlətlərlə əsassız düşmənçiliyə sürükləyir".

***Komissiya sonda bəyan edir ki, Rusiyanı narahat edən "rusofobiya" sindromunun köklərini "Z" blogerlərin fəaliyyətində axtarmaq lazımdır:*** "Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya aidiyyəti dövlət qurumları ilə birgə dövlətimizə qarşı aparılan bu qeyri-dost hərəkətləri yaxından izləyir və müvafiq qabaqlayıcı tədbirləri davam etdirir".

***XQ***

# Xankəndidə xuntanın "XİN" binası sökülür



**Sentyabrın 2-də Xankəndidə uzun müddət qondarma rejimin əsas simvolu və atributu kimi təqdim edilən qondarma rejimin "Xarici İşlər Nazirliyi"nin binasının söküntüsünə başlanılıb.**

Binanın söküntü işlərinə məhz bu gün başlanılması Azərbaycan üçün rəmzi məna daşıyır. Çünki məhz sentyabrın 2-si tarixi Azərbaycanın işğal olunmuş ərazilərində qondarma rejimin elan olunmasının ildönümü kimi qeyd edilirdi.

Qeyd edək ki, vaxtilə işğal olunmuş ərazilərə səfər edən xarici ermənipərəst siyasətçilərlə bu binada görüşlər keçirilir, bu ərazilərə giriş üçün qanunsuz olaraq vizalar, xarici jurnalistlərin qanunsuz akkreditasiyaları imzalanırdı. Bütün bunlar Azərbaycanın dövlət suverenliyinə hörmətsizlik idi.

Hətta bu gün hərbi cinayətlərdə ittiham olunan və hazırda Bakıda məhkəməsi keçirilən Babayan və digərləri bu binada oturaraq Qarabağda Azərbaycan Bayrağının yalnız bir halda dalğalana biləcəyini, bunun da məhz səfirliyin açılması ola biləcəyini bildirirdilər. Ona görə də bu binanın sökülməsinə məhz sentyabrın 2-də başlanılmasının böyük siyasi və rəmzi mənası var.

Artıq beş ildir ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı və sistemli bərpa-quruculuq prosesi həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını əhatə edən "Böyük Qayıdış" Proqramı çərçivəsində azad olunmuş ərazilərdə, şəhər, qəsəbə və kəndlərdə müasir şəhərsalma prinsiplərinə əsaslanan kompleks layihələr icra olunur, yaşayış məhəllələri salınır, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, yollar, enerji və su təchizatı sistemləri qurulur.

Bu tikinti dalğasının davamı olaraq bu gündən Xankəndi şəhərində daha bir mühüm və rəmzi layihənin gerçəkləşdirilməsinə başlanılıb. Uzun illər separatçı rejimin qondarma "Xarici İşlər Nazirliyi"nin istifadə etdiyi inzibati binanın sökülməsi də bu layihənin tərkib hissəsidir. Bu binanın sökülməsi yalnız rəmzi məna daşımır, bu, həm də şəhərsalma baxımından əhəmiyyətlidir.

Sökülən binanın yerində Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi üçün müasir memarlıq üslubunda yeni üçmərtəbəli inzibati bina inşa olunacaq. Baş İdarənin binasının 2027-ci ilin əvvəlində istismara verilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası şəraitində həyata keçirilən "Böyük Qayıdış" Proqramının davamı olaraq inşa ediləcək bu bina Qarabağda dövlət idarəçiliyinin möhkəmləndirilməsinə xidmət edərək, xalqımızın sarsılmaz iradəsini və dövlətimizin gücünü ifadə edən dəyərli simvol kimi tarixdə öz layiqli yerini tutacaq.

***XQ***

# Xəzər dənizi ekoloji fəlakət astanasında

**Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Tiencin şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) sammitində suyun səviyyəsinin azalmasının qeydə alındığı Xəzər dənizi ilə bağlı vəziyyətin hazırda ekoloji fəlakətə yaxın olduğunu bildirib. O, problemin adı çəkilən təşkilat çərçivəsində uzunmüddətli məsləhətləşmələr üçün prioritetliyini də diqqətə çatdıraraq əvvəllər Qazaxıstanın paytaxtında ŞƏT-in himayəsi altında Su Problemlərinin Təhlili Mərkəzinin yaradılmasını təklif etdiyini xatırladıb: "Bu yaxınlarda BMT-nin Baş katibinin iştirakı ilə Almatıda BMT-nin Mərkəzi Asiya və Əfqanıstanda Davamlı İnkişaf Mərkəzinin açılışı olub. Bu, bizim çoxtərəfli diplomatiya prinsiplərinə möhkəm sadiqliyimizi təsdiqləyir. Fürsətdən istifadə edərək, mən bütün tərəfdaşları BMT-nin tərəfdaşlığı ilə 2026-cı ilin aprelində Astanada Regional Ətraf Mühit Sammitinin keçirilməsi qərarı barədə məlumatlandırıram".**





Qazaxıstan Prezidentinin xatırlatdığı kimi, ölkəsi əvvəllər də ŞƏT çərçivəsində Su Problemlərinin Təhlili Mərkəzinin yaradılmasını təklif etmişdi. Bu təşəbbüs təsadüfi deyil. Çünki son onilliklərdə Mərkəzi Asiya və Xəzəryanı regionda su resurslarının idarə olunması strateji sabitlik üçün əsas amillərdən biri hesab edilib. Eyni zamanda, Qazaxıstanın Almatıda BMT-nin Mərkəzi Asiya və Əfqanıstanda Davamlı İnkişaf Mərkəzinin açılışına ev sahibliyi etməsi, eləcə də 2026-cı ilin aprelində Astanada Regional Ətraf Mühit Sammitinin keçirilməsi barədə qərar imzalanması bu ölkənin çoxtərəfli diplomatiya və qlobal ekoloji əməkdaşlıq xəttinə sadiqliyinin göstərib.

Qeyd edək ki, Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi yeni bir hal deyil, lakin son illərdə proses sürətlənərək fəlakət miqyası almağa başlayıb. İqlim dəyişikliyi, bölgədəki çay axınlarının azalması, antropogen təsirlər və qeyri – dayanıqlı iqtisadi fəaliyyətlər bu prosesin əsas səbəbləri kimi göstərilib. Dənizə tökülən ən iri su mənbəyi olan Volqa üzərində çoxsaylı hidrotexniki qurğuların tikilməsi və axının tənzimlənməsi isə təbii dövretməni pozub.

Yeri gəlmişkən, peyk müşahidələrinə əsasən, 1996 – 2021-ci illər ərzində Xəzərin səviyyəsi, təxminən, 1,5 metr azalıb. Azalma 2005-dən sonra daha da kəskinləşib və bu ilin yayında səviyyə tarixi minimuma yaxınlaşıb, dəniz səviyyəsindən 29 metrdən də aşağı bir göstərici qeydə alınıb. Ən sürətli geriləmə şimal hövzəsində (Rusiya–Qazaxıstan sahilləri) müşahidə edilib. Son tədqiqatlarda isə səviyyə enməsinin başlıca hərəkətverici qüvvəsinin buxarlanmanın (hava temperaturunun yüksəlməsi) çoxalması olduğu vurğulanıb.

Xatırladaq ki, Xəzər dənizində suyun səviyyəsinin sürətlə azalması bütün sahilyanı dövlətlərə təsir edir. Belə bir şərait – suyun səviyyəsinin aşağı düşməsi Rusiyanın 3 regionunda bir anda sahil xətti zolağında dəyişikliyi şərtləndirir. Həştərxan vilayətinin Volqa deltasında dəyişikliklərin baş verməsi, yeni adalar yaranması, Kalmıkiyada bir sıra adaların yarımadaya çevrilməsi, Dağıstanda dəniz sahillərinin bir neçə kilometr geri çəkilməsi, Aqraxan körfəzinin demək olar ki, yox olması vurğulanan fikrin bariz ifadəsidir.

Qazaxıstan da bu böhrandan kənarda deyil. Xəzər dənizi bu ölkənin ticarət donanması və beynəlxalq əlaqələri üçün yeganə dəniz qapısıdır. Dünya okeanına çıxışı olmayan Qazaxıstan üçün Xəzərin dayazlaşması yalnız ekoloji deyil, həm də iqtisadi və geosiyasi risklər yaradır. Dəniz limanlarının fəaliyyətinə təsir, nəqliyyat dəhlizlərinin dayanıqlığına zərbə və balıqçılıq təsərrüfatının itkiləri ölkənin milli maraqları baxımından ciddi problemlər kimi narahatlıq doğurur.

Xəzər dənizi dünyanın ən unikal qapalı su hövzələrindən biridir. Burada yaşayan canlıların böyük bir hissəsi endemikdir, yəni yalnız Xəzərdə mövcuddur. Məsələn, nərə cinsli balıqlar dənizin biomüxtəliflik simvoludur. Suyun səviyyəsinin azalması dəniz canlılarının təbii yaşayış yerlərinin daralmasına, çoxalma şəraitinin pozulmasına və nəticədə populyasiyanın azalmasına gətirib çıxarır. Əlavə olaraq, dayazlaşma suyun duzluluq balansını dəyişdirir. Bu da həm balıqların, həm də digər su canlılarının yaşam tərzinə təsir edir. Ətraf mühit mütəxəssisləri xəbərdarlıq edirlər ki, əgər prosesin qarşısı alınmazsa, yaxın onilliklərdə Xəzərdə ciddi ekoloji kollaps baş verə bilər.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi illərlə sahilyanı dövlətlər arasında əsas müzakirə mövzularından biri olub. 2018-ci ildə imzalanan müvafiq konvensiya müəyyən məsələlərdə tərəflərin mövqelərini uzlaşdırsa da, ekoloji problemlərin həlli istiqamətində ortaq mexanizmlərin yaradılması hələ də tam reallaşmayıb. Halbuki suyun səviyyəsinin azalması kimi transsərhəd bir problemə yalnız birgə tədbirlər vasitəsilə cavab vermək mümkündür.

Bu baxımdan Kasım-Jomart Tokayevin səsləndirdiyi təşəbbüslər regional ekoloji diplomatiyanın yeni mərhələyə keçməsi üçün əlverişli fürsət yaradır. ŞƏT çərçivəsində Su Problemlərinin Təhlili Mərkəzinin yaradılması ideyası isə yalnız Qazaxıstanın deyil, bütün sahilyanı dövlətlərin maraqlarına xidmət edir. Belə bir mərkəz elmi – tədqiqatların koordinasiyası, məlumat mübadiləsi və ortaq strateji planların hazırlanması üçün əlverişli platforma ola bilər.

Azərbaycan da Xəzərin dayazlaşması ilə bağlı proseslərdən kənarda deyil. Dənizin şimal hissəsində gedən dəyişikliklər orta və cənub hissələrə də öz təsirini göstərir. Respublikamızın balıqçılıq təsərrüfatı, ekoturizm potensialı və nəqliyyat – logistika layihələri birbaşa Xəzərin ekoloji dayanıqlığından asılıdır. Xüsusən də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Orta Dəhliz layihəsinin uğurlu inkişafı dənizin səviyyəsinin sabit saxlanılmasını zəruri edir.

Bundan başqa, Xəzərin dayazlaşması regionun enerji layihələrinə də dolayı təsir göstərir. Su səviyyəsinin dəyişməsi bəzi infrastrukturun istismarına çətinliklər yarada, ekoloji balansın pozulması isə sahilyanı enerji obyektləri üçün risklər formalaşdıra bilər. Bu səbəbdən, Azərbaycan ekoloji məsələlərin regional əməkdaşlıq gündəliyinin prioritetləşdirilməsində maraqlı tərəf kimi çıxış edir.

Beləliklə, Xəzər dənizində suyun səviyyəsinin azalması artıq lokal problem çərçivəsindən çıxaraq bütün regionun təhlükəsizliyi və dayanıqlı inkişafı üçün strateji çağırışa çevrilib. Qazaxıstan Prezidentinin səsləndirdiyi narahatlıqlar, BMT və ŞƏT çərçivəsində təşəbbüsləri bu məsələnin beynəlxalq əməkdaşlıq müstəvisində daha fəal müzakirə olunmasının zəruriliyini diqqətə çatdırır.

***V.BAYRAMOV***
***XQ***

# İslamabadın İrəvanla dialoqu 8 avqust bəyannaməsinin gerçəkləşməsinə yönəlib

(əvvəli 1-ci səhifədə)



### Yeni reallığın diktə etdiyi jest

Pakistanın baş diplomatının sözlərinə görə, erməni həmkarı Ararat Mirzoyanla birgə Tiencin şəhərində keçirilən ŞƏT-in XXV Zirvə toplantısı çərçivəsində imzaladıqları Birgə Bəyannamə ilə BMT Nizamnaməsinin prinsip və məqsədlərinə sadiqliklərini təsdiqləyib, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığı gücləndirmək üçün birgə fəaliyyət barədə razılığa gəliblər. Bu, o deməkdir ki, Pakistan və Ermənistan diplomatik münasibətlərin qurulmasına dair protokol imzalayıblar. Nəticədə, Pakistanın SSRİ-nin dağılmasından sonra 34 il ərzində Ermənistan Respublikasını dövlət kimi tanımaqdan imtina edən dünyada yeganə ölkə kimi qaldığı vəziyyət artıq keçmişə gömüldü.

Bəli, İslamabadın indiki geosiyasi durumda İrəvanla münasibətlərinə yenidən baxması Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallığın doğurduğu əks-səda sayıla bilər. Yəni, bu, qardaş Pakistanın məhz yeni reallığı nəzərə almaqla etdiyi diplomatik jest kimi qəbul olunmalıdır. Biz yaxşı bilirik ki, Pakistan onilliklər ərzində Azərbaycanın sadiq və sarsılmaz müttəfiqi olaraq qalıb və onun Ermənistanı dövlət kimi tanımaması Qarabağı işğal etməsi faktı ilə bağlı birmənalı qərarı olub. Məhz bu kontekst siyasi analitiklərin diqqətini daha çox cəlb edib. Çünki rəsmi İslamabadın müstəqillik qazandıqdan sonra Ermənistanı tanımamasının səbəbləri məlumdur. Azərbaycanla səmimi qardaşlıq və etibarlı tərəfdaşlıq münasibətlərinə malik Pakistan ərazi bütövlüyünün bərpası məsələsində Bakının mövqeyini bütün müstəvilərdə və həmişə dəstəkləyib.

### İslamabad bu qərarı Vaşinqton sammitindən sonra verdi

Xatırladaq ki, Pakistan dünyada (Türkiyədən sonra) Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olub. 2002-ci ildə Bakı və İslamabad müdafiə və hərbi əməkdaşlıq haqqında saziş imzalayıb. Pakistan həm də Xocalı soyqırımını pisləyən qətnamə qəbul edən ilk ölkə olub. Qardaş ölkənin Senatı 2012-ci ildə faciəni soyqırımı kimi tanıyıb. Növbəti il Azərbaycan Pakistanın təşkil etdiyi AMAN-2013 dəniz təlimlərində iştirak edib. Azərbaycan, Pakistan və Türkiyənin xarici işlər nazirləri tərəfindən 2021-ci ildə imzalanan İslamabad Bəyannaməsi siyasət, iqtisadiyyat və təhlükəsizlik sahələrində əməkdaşlığın gücləndirilməsinə yönəlib. Bəyannamə müdafiə sektorunda üçtərəfli əməkdaşlığa, o cümlədən qabaqcıl təcrübə və texnologiyaların mübadiləsinə sadiqliyini bir daha təsdiqləyib.

Beləliklə, yalnız Azərbaycan və Ermənistan xarici işlər nazirləri Bakının səsləndirdiyi bütün prinsipləri özündə birləşdirən “dünyanın 1 nömrəli ofisində” sülh sazişini parafladıqdan sonra Pakistan Ermənistanla diplomatik münasibətlər qurmaq imkanlarını nəzərdən keçirməyə başladı. Bu proses həm də Vaşinqton razılaşmalarının beynəlxalq önəmini nümayiş etdirdi ki, bu da digər məsələlərlə yanaşı, Azərbaycanın regionda qeyd-şərtsiz liderliyi sayəsində baş tutdu. Şübhə yoxdur ki, İslamabad bu addımı Bakı ilə məsləhətləşmələrdən sonra atıb. Bu kontekstdə Prezident İlham Əliyevin ilin əvvəlində Azərbaycan və Pakistanın beynəlxalq münasibətlərin bütün məsələlərində, xüsusilə də suverenlik və ərazi bütövlüyünün təmin edilməsi aspektində bir-birini dəstəkləməkdə davam edəcəkləri barədə dediyi sözləri xatırlayırıq. İslamabadın bu xoşməramlı jesti İrəvanın boynuna müəyyən öhdəlik də qoyur. Əgər Ermənistan hakimiyyəti həqiqətən regional və qlobal siyasətin subyektinə çevrilmək niyyətindədirsə, 8 avqust Vaşinqton Birgə Bəyannamələrini pozmamalıdır.

Rəsmi İslamabadın bu mövqeyinin tarixi korreksiyası Ağ Evdə keçirilən sammitdən sonra ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında münaqişəyə son qoyulması və yekun sülh sazişinin imzalanması perspektivinin açılması ilə bağlı razılıq əldə olunduqdan sonra baş verdi. Məhz münaqişənin başa çatması ilə Pakistanın Ermənistanı tanımaq və onunla diplomatik əlaqələr qurmaq üçün siyasi imkanının olduğu elan edildi. Bəli, Azərbaycan və Pakistan arasında dərinləşən strateji tərəfdaşlıq İslamabadın müttəfiqinin maraqlarına zidd hərəkət edə biləcəyi ehtimalını istisna edir.

### Dehlinin cəhdlərini puça çıxaran qərar

Aydın məsələdir ki, bu gün Azərbaycanın bölgədə münasibətlərin normallaşması yönündə atılan addımlara etiraz etmir. Çünki ölkəmiz öz ərazi bütövlüyünü bərpa, Qarabağ üzərində tam suverenliyini təmin edib. Üstəlik, özünün irəli sürdüyü sülh gündəliyi ilə prosesin yekun mərhələsinin həmmüəllifinə çevrilib. Dost və qardaş Pakistanın məhz Vaşinqton sammitinin əlverişli fonundan istifadə edərək Ermənistanla diplomatik münasibətlərin bərpasına qərar verməsi qətiyyən təəccüblü görünməməlidir.

Yəni, hazırda şahidi olduğumuz mövcud vəziyyət İkinci Qarabağ müharibəsindən sonra baş verən dəyişikliklərin birbaşa nəticəsi sayılmalıdır. İndi biz həmin dövrün fəsadlarının aradan qaldırılmasını müşahidə etməkdəyik. Amma yenə də bölgədə məkrli məqsədlərini reallaşdırmağa çalışan kənar aktorlar var. Cənubi Qafqazda Hindistan timsalında yeni amilin meydana çıxması ənənəvi Azərbaycan–Türkiyə–Pakistan oxu üçün çağırışa çevrilib. Bu koalisiyanın güclənməsindən ehtiyatlanan rəsmi Dehli Rusiyanın Ermənistandakı mövqelərinin zəifləməsi nəticəsində yaranan boşluqdan istifadə edərək İrəvanın əsas silah təchizatçısı rolunda çıxış etməyə girişib. Bu səbəbdən Cənubi Qafqazın təkcə regional deyil, həm də qlobal rəqabət meydanına çevrildiyini deyə bilərik. Bu mübarizədə Hindistanın Azərbaycan–Türkiyə–Pakistan birliyinə qarşı çıxması heç kəsə sirr deyil. Amma bu zaman Çinin eyni vaxtda həm Mərkəzi Asiya, həm də Cənubi Qafqazda mövqelərini möhkəmləndirməsi, həm Bakı, həm də İrəvanla tərəfdaşlıq əlaqələri qurması başadüşüləndir.

Belə bir şəraitdə Pakistan Vaşinqton sammitinin əlverişli fonundan istifadə edərək Ermənistanla diplomatik müstəviyə keçməyə qərar verdi. Bu addım təkcə simvolik deyil, həm də hər şeydən əvvəl praqmatikdir. Çünki bu qərar İslamabadın regional proseslərdə daha fəal iştirakına imkanlar açır, eyni zamanda, onun yeni təhlükəsizlik arxitekturasında iştirakını gücləndirir.

Beləliklə, Ağ Evdə keçirilən sülh sammiti Azərbaycanın ənənəvi müttəfiqlərinin siyasətində yeni səhifənin açılmasına imkan verən əsas məqam oldu. Neçə onilliklər Rusiyanın “arxa bağçası” hesab edilən region gözümüzün qabağında sürətlə dəyişir: yeni ittifaq xətləri yaradılır, qlobal oyunçular güclənir və köhnə formatlar keçmişin arxivinə göndərilir. Onu da yada salaq ki, Bakının sadiq müttəfiqi olan Türkiyə Ermənistanın müstəqilliyini hələ 1991-ci ildə tanıyıb, amma İrəvanın Azərbaycana təcavüzü səbəbindən sərhədlərini bu ölkənin üzünə bağlayıb və heç vaxt diplomatik əlaqələr qurmayıb. Pakistan isə daha da irəli gedərək, prinsip etibarilə erməni dövlətinin mövcudluğunu tanımaqdan imtina etmişdi.

Əslində, İslamabadın bu siyasi jesti Hindistanın Ermənistandan Azərbaycana, Türkiyə və Pakistana qarşı Cənubi Qafqazda vasitə kimi istifadə etmək cəhdinin puça çıxdığı anlamına gəlir. Çünki Azərbaycan və Ermənistan arasında Vaşinqton görüşündə əldə edilən razılaşmalar bəziləri kimi, rəsmi Dehlini də xarici siyasi kursuna, o cümlədən Cənubi Qafqazla bağlı məsələlərə yenidən baxmağa vadar edəcək.

Pakistan Ermənistana faydalı əməkdaşlığın və qarşılıqlı münasibətlərin işğalçılıq, yersiz və əsassız iddialardan daha faydalı olduğunu ötən 34 ildə göstərib. İndi əminliklə deyə bilərik ki, Qarabağın işğaldan azad edilməsi Ermənistanın Pakistana da yolunu açmış oldu...

***İmran BƏDİRXANLI***
***XQ***

# Zəngəzur dəhlizi regiona yeni diplomatik fəallıq gətirir

## *Bu layihənin əlavə tranzit marşrutlarını təmin etmək potensialı böyükdür*

**Tarixi qanunauyğunluq budur ki, coğrafi mövqe dövlətlərin taleyini müəyyənləşdirir. Qədim İpək Yolunun Azərbaycan ərazisindən keçməsi ölkəmizin əsrlər boyu Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşən mühüm tranzit qovşağı rolunu oynamasına töhfə verib. Bu gün həmin tarixi miras müstəqil Azərbaycanın geosiyasi strategiyasında yeni məzmun qazanır. Hazırda regional və qlobal aləmin diqqətində Zəngəzur dəhlizi (TRIPP) dayanır. Söhbət təkcə Azərbaycanın milli maraqlarından deyil, həm də bütövlükdə türk dünyasının strateji inteqrasiyasından, marşrutun Şimal-Cənub nəqliyyat dəhlizinin bir hissəsi olaraq Avrasiyanın nəqliyyat xəritəsindəki əhəmiyyətindən gedir.**

Prezident İlham Əliyev sentyabrın 1-də Çinin Tiencin şəhərində “ŞƏT plyus” formatında keçirilən görüşdə məsələ ilə bağlı qeyd etdi ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantının yaradılması üzrə bu yaxınlarda əldə olunmuş razılaşmalar beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının genişlənməsinə xidmət edəcək: “Əminəm ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal–Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək”.

Şübhəsiz, reallaşacaq Zəngəzur dəhlizi (TRIPP) Şimal–Cənub marşrutunun davamı kimi strateji rola malikdir. Oxuculara xatırladaq ki, Şimal–Cənub (North-South Transport Corridor, NSTC) Rusiya, İran və Hindistan başda olmaqla bir neçə ölkəni birləşdirən beynəlxalq logistika marşrutudur və əsas məqsədi Avropa ilə Cənubi Asiya arasında yük daşımalarını sürətləndirmək, logistika xərclərini azaltmaq və ticarət dövriyyəsini artırmaqdır. Şimal–Cənub dəhlizi həm dəniz, həm də quru yollarından istifadə etməklə yüklərin Rusiya, İran üzərindən Hindistana və əks istiqamətdə daşınmasını təmin edir. Dəhliz yükü Rusiya limanlarından Xəzər dənizi vasitəsilə İran limanlarına çatdırır, oradan isə Hindistana və ya digər Cənubi Asiya ölkələrinə yönləndirir. Rusiya və İran arasında dəmir yolu infrastrukturunun aktiv istifadəsi yük daşımalarının sürətini əhəmiyyətli dərəcədə artırır, logistika xərclərini isə azaldır. Marşrut Avropa–Asiya ticarət əlaqələrində alternativ yol kimi çıxış etməklə Rusiya və İran üçün tranzit imkanlarını genişləndirir, Hindistanın Avropaya çıxışını asanlaşdırır. Azərbaycanın ərazisi isə dəhlizin kritik hissəsini təşkil edir. Çünki Bakı limanı, dəmir yolu və magistral yollar vasitəsilə yük Rusiya və İran üzərindən gələn marşrutlarla birləşdirilir. Ölkəmiz eyni zamanda logistika infrastrukturunu modernləşdirir, sərhəd-keçid məntəqələrini optimallaşdırır və rəqəmsal gömrük sistemlərinə keçid edərək yük daşımalarının sürət və təhlükəsizliyini artırır.

Yeri gəlmişkən, “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı” çərçivəsində Şimal–Cənub nəqliyyat dəhlizinin potensial imkanlarını genişləndirməyə yönəlmiş kompleks tədbirlər nəzərdə tutulub. Bu tədbirlər dəhlizin tranzit funksiyasını artırmaqla prosesdə rəqəmsallaşmanın tətbiqini və beynəlxalq standartlara uyğunlaşmanı təmin edir. Planın prioritet istiqamətlərindən biri sərhəd-keçid məntəqələrinin infrastruktur təminatının təkmilləşdirilməsidir. Sözügedən istiqamətdə görülən işlər kompleks şəkildə Şimal–Cənub dəhlizinin tranzit potensialını reallaşdırmağa xidmət edir, Azərbaycanı Avropa-Asiya ticarət əlaqələrində strateji mərkəz kimi möhkəmləndirir. Sözügedən yanaşma yükdaşımaların təhlükəsizliyini və sürətini təmin edərək regionda rəqabət qabiliyyətini yüksəldir və beynəlxalq ticarət dövriyyəsinin optimallaşdırılmasına töhfə verir. Zəngəzur dəhlizi (TRIPP) isə Şimal–Cənub xəttinin əhəmiyyətli tamamlayıcısıdır. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa nəqliyyat əlaqəsi yaradacaq marşrut regional inteqrasiyanı gücləndirməklə yanaşı, həm də yük daşımalarını daha sürətli və etibarlı edəcək. Şimal–Cənub dəhlizindən gələn yüklər Azərbaycan üzərindən Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə Türkiyə və Avropaya yönəldiləcək, bu da tranzit imkanlarını xeyli şaxələndirəcək.



Azərbaycan Orta Dəhlizin əsas aktorlarından biridir. Ölkə həm tranzit yük həcminin artırılması, həm də logistika infrastrukturunun modernləşdirilməsi baxımından önəmli rol oynayır. Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu kimi mövcud marşrutlar Azərbaycanın regional nəqliyyat mərkəzinə çevrilməsinə şərait yaradır. Bununla yanaşı, liman infrastrukturu və tranzit xidmətlərinin inkişafı Azərbaycanı strateji tərəfdaş kimi daha cəlbedici edir. Avropanı Asiya ilə birləşdirən region ölkələrinin iqtisadi və siyasi inteqrasiyasını gücləndirən strateji platformaya çevrilib. Orta Dəhlizin inkişafı yük daşımalarının daha sürətli və təhlükəsiz həyata keçirilməsinə imkan verərək qlobal logistika xərclərini azaldır və Avropa-Asiya ticarət dövriyyəsində Azərbaycanın mövqeyini gücləndirir. Bu kontekstdə də Zəngəzur dəhlizinin (TRIPP) Orta Dəhlizə inteqrasiyası layihənin strateji dəyərini daha da artırır.

Beləliklə, Zəngəzur dəhlizi (TRIPP) regional etimadın və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir. Dəhlizin fəaliyyətə başlaması ilə Cənubi Qafqazda ölkələrarası qarşılıqlı əlaqələr daha səmərəli və şəffaf xarakter alacaq, potensial gərginliklər azalacaq. Azərbaycanla qonşu ölkələr arasında çoxtərəfli tərəfdaşlıq üçün platforma rolunu oynayan layihə həm də regional stabilliyin təminatına töhfə verəcək. Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi Mərkəzi Asiya dövlətləri də Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə Avropa və Türkiyə bazarlarına daha qısa, təhlükəsiz və sabit marşrut əldə edəcəklər. Bu isə regional ticarət axınlarını sürətləndirməklə yanaşı, Avrasiya ölkələri arasında qarşılıqlı iqtisadi əməkdaşlığı dərinləşdirəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru**

Azərbaycanda həm şərq, həm də qərb istiqamətində artıq bir yol formalaşıb ki, bu, Bakı-Tbilisi-Qarsdır. Hazırda ölkəmiz işğaldan azad olunmuş ərazilərdə eyni istiqamətdə ikinci marşrut olacaq Arazboyu dəmir yolunu tikməkdədir. Müxtəlif istiqamətləri əhatə edən bu marşrutlar bir sıra ölkələrə mühüm dividendlər qazandıracaq. İlk növbədə vurğulanmalıdır ki, yüklərin yönəldilməsində ABŞ-ın marağı özünü büruzə verir. Digər tərəfdən Zəngəzur dəhlizi (TRIPP) şimal və cənub istiqamətində də istifadə oluna bilər. Bunu Azərbaycan Prezidenti “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində də bildirmişdi ki, yüklər Rusiyadan Bakıya və daha sonra Zəngəzur dəhlizi vasitəsilə Culfaya, oradan da İran istiqamətinə daşına bilər. Proses qardaş ölkə Türkiyə istiqamətində də malların yönləndirilməsinə töhfə verəcək. Yeni təməli qoyulmuş və Zəngəzur dəhlizinin (TRIPP) mühüm hissəsi olan Qars-Naxçıvan dəmir yolu vasitəsilə isə Qara dənizdən Körfəz ölkələrinə qədər dəmir yolu imkanlarının genişləndirilməsi mümkündür. Yəni Zəngəzur dəhlizinin (TRIPP) reallaşması ümumi kommunikasiyaların açılmasına, yeni dəmir yollarının inşasına, şimal, cənub, şərq və qərb istiqamətində nəqliyyat yollarının formalaşmasına gətirib çıxara bilər. Şübhəsiz, bundan həm sadaladığımız coğrafiyada olan ölkələr, həm də Azərbaycanın dörd bir tərəfində olan dövlətlər fayda görəcək.

*Tarix yazılan günlər*

# Naxçıvandan başlanan xilaskarlıq missiyasının ilk səhifəsi

**1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və Azadlıq meydanında toplaşan minlərlə insanın təkidi ilə Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi xalqın dahi liderə bəslədiyi dərin etimadın nəticəsi idi. Bu gün yalnız Naxçıvan üçün deyil, bütövlükdə Azərbaycanın taleyi üçün də önəmli bir tarixi gün kimi yaddaşlara yazılmışdır.**

Həmin dövrdə Naxçıvan ölkənin əsas ərazilərindən ayrı düşmüş, digər bölgələrlə bütün nəqliyyat və rabitə əlaqələri kəsilmiş, muxtar diyar erməni təcavüzü ilə üz-üzə qalmışdı. Bu çətin və mürəkkəb şəraitdə naxçıvanlıların yeganə təsəllisi dahi şəxsiyyət Heydər Əliyevin onların yanında olması idi.

Ümummilli lider sonralar Naxçıvanın, ümumilikdə isə Azərbaycanın gələcəyi baxımından əlamətdar olan bu gün haqqında danışarkən demişdir: "Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhvali-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Yəqin etdim ki, mən öz prinsiplərimə sadiq qalaraq, eyni zamanda indi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafına toplaşan naxçıvanlıların qoyduqları vəzifənin ifasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir... Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".

Zamanın və insanların çağırışına məhz bu düşüncələrlə cavab verən Ulu öndər bununla da Naxçıvan Muxtar Respublikasını erməni təcavüzündən xilas etmiş, blokada şəraitində gələcək inkişafın böyük təməllərini atmışdır. Böyük şəxsiyyətlər tarixdə müəyyən rol oynasalar da, dahi insanlar təkcə rol oynamaqla kifayətlənmir, həm də tarixin gedişatını formalaşdırırlar. Ümummilli lider Heydər Əliyev də əvəzolunmaz xidmətləri ilə ölkəmizi böyük sınaqlardan çıxararaq onun müstəqilliyini qorumuş, Azərbaycanın beynəlxalq aləmdə layiqli yerini möhkəmləndirmişdir. Ulu öndər fəaliyyət göstərdiyi bütün dövrlərdə əsl lider olaraq insanları öz ideya və baxışları ətrafında birləşdirmiş, zəngin təcrübəsi ilə idarəçilikdə mühüm uğurlar qazanmış və cəmiyyətin maraqlarını hər zaman ön planda saxladığı üçün xalqın dərin etimadına nail olmuşdur.

Ulu öndərin 1990-cı ilin iyulunda Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdışı da sanki tarixi bir zərurət idi. Bu qayıdış, eyni zamanda Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçki kampaniyası ilə bir vaxta düşmüşdü. Babək rayonunun sakinləri ilə görüşdə Heydər Əliyevin 340 nömrəli Nehrəm Seçki Dairəsi üzrə Azərbaycan SSR xalq deputatlığına namizədliyi irəli sürülmüş, keçirilən seçkilər zamanı ulu öndər Heydər Əliyev həm respublika parlamentinə, həm də Naxçıvan Ali Məclisinə deputat seçilmişdir.

Həmin il noyabrın 17-də Naxçıvan Ali Məclisinin birinci sessiyası keçirilmişdir. Görkəmli dövlət xadiminin sədrliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması qərarlaşdırılmışdır. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "sovet sosialist" sözlərinin çıxarılması dahi şəxsiyyətin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün olmuşdur.

Eyni zamanda, həmin sessiyada dahi şəxsiyyət Heydər Əliyevin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da sıradan bir düzəliş deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini kollektivləşmə üzərində quran nəhəng bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi! Naxçıvan MSSR-nin adından "sovet sosialist" sözlərinin çıxarılması, Naxçıvan Muxtar Respublikası Ali Soveti formatında "Soveti" ifadəsinin "Məclisi" sözü ilə əvəz edilməsi isə əslində, faktiki olaraq SSRİ-nin tərkibindən çıxmaq, bu dövlətin çərçivəsində müstəqil dövlət qurumu yaratmaq demək idi.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 17 noyabr 1990-cı il sessiyasında Azərbaycanın dövlət rəmzi kimi Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi barədə yekdilliklə qərar qəbul edilmiş və sessiyanın iclasına sədrlik edən Heydər Əliyevin təşəbbüsü ilə həmin milli mahiyyət daşıyan Dövlət bayrağı Ali Məclisə gətirilmişdir. Bütün bunlar yalnız və yalnız dahi şəxsiyyət Heydər Əliyevin həm böyük siyasi iradəsinin, yüksək Azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdir.

Azərbaycan xalqının qan yaddaşında silinməz iz qoymuş 20 Yanvar faciəsinə də ilk dəfə siyasi qiymət Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən verilmişdir. Xalq deputatı Heydər Əliyev "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Ali Məclisin sessiyasının müzakirəsinə təqdim etmişdir. Həmin gün Ali Məclisin binası önünə toplanmış xalq kütləsinin ciddi tələbi, muxtar respublika deputatlarının fəallığı və Heydər Əliyevin böyük siyasi nüfuzu nəticəsində qəbul olunan bu qərarda Qanlı Yanvar hadisələrinə ilk dəfə düzgün siyasi qiymət verilmiş, bu hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərliyinin də böyük günahı qeyd olunmuş və onların adları açıq göstərilərək məsuliyyətə cəlb edilmələri tələb edilmişdir.



1991-ci ilin ikinci yarısından etibarən Azərbaycanda hakimiyyət böhranının dərinləşməsi, demək olar ki, son həddə çatmışdı. Etibarını itirmiş Azərbaycan Kommunist Partiyası artıq səlahiyyətlərini də itirməkdə idi. Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da, sözün əsl mənasında, elan olunmamış fövqəladə şərait yaranmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasının çağırılması ölkədə, o cümlədən regionda yaranmış çətin və mürəkkəb vəziyyətin tələblərindən irəli gəlmişdi. Sessiyanın gündəliyinə həmin tarixi mərhələnin aktual məsələləri daxil edilmişdi. Fövqəladə sessiya ölkədə Azərbaycan Respublikası prezidenti seçkilərinin keçirilməsinə münasibət bildirməli idi.

Bundan əlavə, gündəliyə daxil edilmiş Azərbaycan Kommunist Partiyası təşkilatının fəaliyyətini davam etdirib-etdirməməsi məsələsi də cəsarətli münasibət tələb edirdi. Gündəlikdə nəzərdə tutulan məsələlərin hamısı zamanın meydana çıxardığı aktual problemlər idi və Azərbaycan üçün taleyüklü məsələləri əhatə edirdi. Bu problemlərin həllinə təsir göstərmək Azərbaycanda müstəqil dövlətçilik prosesinin dərinləşdirilməsinə və sürətləndirilməsinə xidmət edirdi.

Lakin həmin məsələlərin müsbət həlli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında bu ali hakimiyyət orqanının sədri seçiləcək şəxsin siyasi iradəsindən, cəsarəti və uzaqgörənliyindən çox asılı idi. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının həll edəcəyi ən əsas vəzifə təşkilati məsələ idi.

Həmin gün Ali Məclisin binası qarşısına toplanmış minlərlə insan Heydər Əliyevin seçilməsini tələb edən bəyanatlarla çıxış edirdi. Lakin sessiyanın keçirilməsinə qədərki mərhələdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvü kimi ölkədə, o cümlədən regionda gedən ictimai-siyasi proseslərdə sözünü deyən, cəmiyyət həyatının demokratikləşdirilməsinə ciddi təsir göstərən, xüsusən özünü, bütövlükdə, dövlət müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş dahi Heydər Əliyev heç bir rəsmi dövlət vəzifəsi daşımaq niyyətində olmadığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının iclasında da o, dörd dəfə çıxış edərək namizədliyini irəli sürənlərə minnətdarlıq duyğularını ifadə etməklə yanaşı, böyük təkidlə bu məsələnin səsə qoyulmamasını xahiş etmişdir. Lakin xalqın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının təkidi ilə dahi şəxsiyyət ölkə və region üçün fövqəladə şəraitdə və fövqəladə hal olaraq çağırılması zəruri sayılmış sessiyada bu ali dövlət qurumunun rəhbəri seçilməsinə, nəhayət ki, razılıq vermişdir. 3 sentyabr 1991-ci il tarixdə – öz işinə başlayan sessiyanın iclasları 8 sentyabradək – 5 gün ərzində davam etdirilmiş, ölkə səviyyəsində və region üçün əhəmiyyətli olan məsələlər geniş müzakirə edilərək müvafiq qərarlar qəbul olunmuşdur.

Gündəlikdə duran məsələlərə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası yaranmış tarixi şəraitdə alternativsiz namizəd irəli sürüldüyünü, hələlik ölkədə çoxpartiyalı sistemin formalaşmadığını, Kommunist Partiyasının süquta uğradığını, seçki komissiyası və məntəqələri üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin olunduğunu nəzərə almaqla, Azərbaycan Respublikası Prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin muxtar respublika ərazisində keçirilməsinin dayandırılmasına dair qərar qəbul etmişdir.

3 sentyabr 1991-ci il sessiyasında "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edilərək Azərbaycan Respublikasının Ali Sovetindən xahiş olunmuşdur ki, Sovet İttifaqı Kommunist Partiyası, Siyasi Büro, Mərkəzi Komitə dağıdıldığı üçün respublikada da bu siyasi-təşkilati qurumların fəaliyyəti dayandırılsın. Bunlar Azərbaycanda müstəqil dövlətçiliyin bərqərar olmasına xidmət edən tarixi qərarlar idi. Ümumiyyətlə, dahi rəhbərin siyasi fəaliyyətinin Naxçıvan dövrü nə qədər çətin və mürəkkəb bir zamana təsadüf etsə də, bu dövr Azərbaycanın müstəqillik tarixində çox böyük dəyər daşıyır.



Prezident İlham Əliyev həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların tarixi əhəmiyyətini vurğulayaraq demişdir: "O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. ...O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də Ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür".

Beləliklə, Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin varislik ənənələri ilk dəfə Naxçıvanda bərpa olunmuşdur. Və bunun da təməlində həm bəşəri, həm də milli dəyərləri özündə birləşdirən müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesinə başlanılmışdır. Nəzərə alaq ki, ötən əsrin 90-cı illərində Naxçıvan ətraf aləmdən təkcə iqtisadi və sosial bağları qoparılmış bölgə deyildi. O zaman sərhədlərinin böyük bir hissəsi boyunca düşmən hücumlarının hədəfinə çevrilmiş bir vətən parçası idi. Buna görə də dünya şöhrətli siyasətçi Heydər Əliyev Ali Məclisin Sədri kimi vəzifəsinə başlayandan cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etmişdir.

Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım olmuşdur. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların yüz faiz muxtar respublikada saxlanılması təmin edilmişdir. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və Ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada ilk milli ordu birləşmələri yaradılmış, Naxçıvanın müdafiə potensialı yaxşılaşdırılmış, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası ilk dəfə məhz Naxçıvanda qoyulmuşdur. Dövlətçilikdə əsas amillərdən biri sayılan xalqın vahid ideya və amal uğrunda birləşdirilməsi də görkəmli dövlət xadiminin bütün siyasi fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etməsi idi ki, 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" qərar qəbul olunmuşdur.

Bundan əlavə, çoxəsrlik qonşuluq münasibətlərinə malik Naxçıvanın Türkiyə və İranla əlaqələrinin bərpası uzun illərdən sonra ilk dəfə Ulu öndərin Naxçıvanda fəaliyyət göstərdiyi dövrə təsadüf edir. 1992-ci ildə hər iki ölkəyə edilmiş səfərlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanmış, iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuşdur.

Görülən işlərin praktiki nəticəsi kimi qısa müddətdə Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verilmiş, Sədərək, Culfa və Şahtaxtı gömrük-keçid məntəqələrinin fəaliyyəti təmin olunmuşdur. İqtisadi sahəyə nəzər salsaq, Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarların qəbul edilməsi muxtar respublikada kənd təsərrüfatının inkişafını şərtləndirən mühüm amil olmuş, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmışdır.

Bütün bunlarla yanaşı, 1992-ci il noyabrın 21-də Naxçıvanda ölkəmizin ictimai-siyasi həyatı, ümumilikdə isə müstəqil Azərbaycanın gələcəyi üçün mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının da əsası qoyulmuşdur. Qısa müddətdə üzvlərinin sayı durmadan artan partiya xalq arasında böyük nüfuz qazanmış, ölkə həyatının inkişafında böyük rol oynamışdır.

Göründüyü kimi, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda böyük işlər görülsə də, ölkədə hakimiyyətdə olanların səriştəsizliyi Azərbaycanı daxildən parçalanmağa, məhv olmağa sürükləyirdi. Torpaqlarımızın ard-arda işğal olunması, yaranmış gərgin ictimai-siyasi hadisələr 1993-cü il iyun ayının əvvəllərində özünün son həddinə çatdı. Hakimiyyət böhranı bütün ölkəni cənginə aldı. Artıq Azərbaycan öz dövlət müstəqilliyini ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyevə üz tutdu.

Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verərək 1993-cü il iyunun 15-də siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, məhv olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi yazıldı. Həmin gündən etibarən dahi şəxsiyyətin müdrik daxili və xarici siyasəti nəticəsində 1991-ci il sentyabrın 3-dən Naxçıvandan başlanan müstəqillik yolu ölkə miqyasında davam etdirildi. Beləliklə, tarix üçün qısa zaman ərzində Azərbaycan mühüm nailiyyətlər qazandı.

1991-ci ilin 3 sentyabr tarixindən 34 il ötür. Bu illərdə Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası böyük inkişaf yolu keçmişdir. Heydər Əliyev ideyalarının layiqli davamçısı, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə torpaqlarımız erməni işğalından azad edilmiş, 2023-cü ilin sentyabr ayından isə suverenliyimiz bütün ölkə ərazisində bərqərar olmuşdur. Bu gün işğaldan azad edilmiş şəhər, rayon və kəndlərimiz yenidən qurulur, illərdir qaçqın və məcburi köçkün həyatı yaşayan soydaşlarımız öz doğma yurd-yuvalarına geri qayıdırlar.

Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikası da cənab İlham Əliyevin müəyyənləşdirdiyi yeni inkişaf mərhələsinə qədəm qoyub. Ötən dövrdə muxtar respublikanın təhlükəsizliyi yüksək səviyyədə təmin olunub, regionun sosial-iqtisadi inkişafı üçün lazımi addımlar atılıb. Yaxın gələcəkdə açılacaq Zəngəzur dəhlizi isə Azərbaycanın digər bölgələri ilə qədim Naxçıvanın kommunikasiya problemlərini də aradan qaldıracaq, eləcə də regionun siyasi, iqtisadi, mədəni əlaqələrinə öz töhfəsini verəcək.

Böyük öndərin "İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin" fikirləri artıq bu gün qədim diyarın real həyatında öz əksini tapıb.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# “Lemkinçilik” – Cənubi Qafqazda sülhə demarş

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, söhbət “lemkinçilərin” Azərbaycana qarşı açıq qərəz yağdırmasından gedir. Təşkilat köhnə “ampluasındadır” və indi ölkəmizlə bağlı antipatiya tonunu avqustun 8-də imzalanmış “Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamə”yə kökləyib. Yazımız bu barədə olacaq. Ancaq əvvəlcə bəzi məqamları vurğulayaq.

*

Qeyd edək ki, sözügedən institut adını 1900–1959-cu illərdə yaşamış yəhudi əsilli polşalı hüquqşünas Rafael Lemkindən götürüb. Lemkin II Dünya müharibəsi dövründə nasistlərin yəhudilərə, polyaklara və digər xalqlara qarşı törətdiyi kütləvi qırğınları izləyərək, bu cür cinayətlər üçün ayrıca hüquqi anlayışın vacibliyi ideyasını irəli sürmüş, ilk dəfə 1944-cü ildə yazdığı “İşğal olunmuş Avropada ox qüvvələrinin idarəetməsi” kitabında “genocide” (yunanca genos nəsil, xalq, latınca caedere öldürmək) sözünü işlətmişdi. Məhz Lemkinin israrlı təşəbbüsü ilə 1948-ci ildə BMT “Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya” qəbul etmişdi və hazırda beynəlxalq hüquqdakı soyqırımı anlayışı bu şəxsin mirası hesab olunur.

R.Lemkin idealist idi. Eynilə ABŞ-ın atom bombasının ixtiraçısı, tanınmış fizik Culius Robert Oppenheymer kimi. Oppenheymer özünün nüvə silahı təşəbbüsünə bəşəri prizmadan yanaşırdı. Məsələn, o, səmimi şəkildə inanırdı ki, atom bombası gələcəkdə insanlıq əleyhinə cinayətlərin törədilməsi meyillərinin qarşısını birdəfəlik almaq üçün çox vacibdir. Başqa sözlə desək, alim faşist Almaniyası kimi dövlətlərin baş qaldıracağı təqdirdə, onlarla mübarizənin uzun sürməsinin və dəhşətli müharibənin yaşanmasının əleyhinə idi. Hətta hesablayırdı ki, savaşda itirilən canlar atom bombasının atılması zamanı qeydə alınacaq tələfatdan xeyli çoxdur.

Oppenheymer atom bombasının təkcə ABŞ-ın deyil, dünyanın ixtiyarına verilməsi və onun istifadəsinin yalnız müştərək qərarla gerçəkləşməsi ideyasını da irəli sürmüşdü. Amma sadəlövh fizik Birləşmiş Ştatların o zamankı rəhbərliyinin nüvə silahını qlobal rəqabət kontekstinə daşıdığını gördü, ardınca Xerosima və Naqasaki dəhşətindən ciddi məyusluq duydu. Heç şübhəsiz, eyni məyusluğu R.Lemkin də duyardı. Lemkinin həm də niyə məyus olardı, bu barədə də söz açacağıq. Hələlik isə...

*




Əlqərəz, Lemkin İnstitutu avqustun 8-də imzalanmış “Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamə”yə fokuslanaraq, Cənubi Qafqazda ermənilərə qarşı soyqırımı təhlükəsi ilə bağlı narahatlıq və təşviş ifadə edib. Qurumun bununla bağlı bəyanatında bildirilib ki, hazırda medianın yaydığı məlumatlar və ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə əldə olunmuş Birgə Bəyannamə sülhün vaxtından əvvəl bayram edilməsidir.

“Lemkinçilərin” baxışlarına görə, guya, Azərbaycanın törətdiyi kütləvi cinayətlər, ölkəmizin davam edən təcavüzkar niyyəti diqqətdən kənarda qalıbmış və bu səbəbdən Vaşinqtonda paraflanmış sülh sazişi yeni müharibə və dağıntılara gətirib çıxara, Azərbaycanın ermənilərə qarşı soyqırımı xarakterli hərəkətləri üçün münbit şərait yarada bilər.

Əvvəlki havalara köklənmiş Lemkin İnstitutu yenə “Bakı həbsxanalarında saxlanılan erməni hərbi əsirlər” cəfəngiyyatını qaldırıb. Ən əsası isə “Artsax Respublikası” kimi sərsəmliyi gündəmə gətirən qurum Azərbaycanı “işğalçı” adlandırıb. Guya, Vaşinqtonda imzalanmış Birgə Bəyannamə işğalı leqallaşdırırmış və guya, sülh sazişi ilə ölkəmiz hüquqi cəhətdən güclü mövqeyə sahib Ermənistanı susdurmaq imkanı qazanıbmış.

Lemkin İnstitutunun başbilənlərini “təşvişə salan” daha bir cəhət isə ATƏT-in Minsk qrupunun fəaliyyətini rəsmən dayandırmasıdır. Hiss olunur ki, onlar bəyanatlarını həm də bu hadisəyə görə yayıblar. Bəyanatda o da bildirilib ki, Azərbaycan Minsk qrupunun buraxılmasına nail olmaqla, “Artsax”dakı “soyqırımın” nəticələrini möhkəmləndirmək və qanuniləşdirmək istəyir.

Təşkilat yaydığı sənəddə, eyni zamanda, vurğulayıb ki, Azərbaycan Ermənistanı Minsk qrupunun buraxılmasına məcbur etməklə, Qarabağ ermənilərinin hüquqlarını tanıyan yeganə diplomatik mexanizmi aradan qaldırıb. Habelə, sən demə, ölkəmiz Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılmasına nail olmaqla, özünün insan haqlarını pozan statusunu göstərən nadir istinadgahlardan birini sıradan çıxarıb və bundan sonra Azərbaycan Ermənistanı zəiflətmək və onun suverenliyini sarsıtmaq yolunda irəliləyəcək.

Lemkin İnstitutunun yaydığı bəyanat qurumun öz fəaliyyət dairəsini aşdığını, siyasi fəaliyyətə keçdiyini də sübuta yetirir. Məsələn, təşkilatdakılar iddia ediblər ki, Ermənistanın təhlükəsizlik siyasətinin radikal şəkildə ABŞ-a yönəldilməsi əlavə risklər doğurur. “Saziş Ermənistanın təhlükəsizliyi üçün mühüm olan Rusiya və İranın maraqlarına təhdid yaradır. ABŞ iqtisadi və strateji cəhətdən “Zəngəzur dəhlizi”ndə maraqlıdır. Bu dəhliz “Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu” (TRIPP) adlandırılacaq. ABŞ Xəzər dənizinə və Mərkəzi Asiyanın resurslarına çıxış dəhlizinin inkişafına monopoliyanı əldə edəcək ki, bu da ona Rusiya və Çinin təsirinə meydan oxumağa imkan verəcək”.

Onu da bildirək ki, Lemkin İnstitutu nəinki Azərbaycana qarşı qərəzli mövqe tutur, eyni zamanda, təxribatçı xətt yürüdür. Diqqətə çatdırdığımız iqtibasdan da bunu görmək mümkündür. Ancaq təşkilatın təfriqəyə keçdiyinin başqa sübutları da var. “Lemkinçilər” iddia edirlər ki, Azərbaycanla Ermənistan arasındakı mövcud sülh sazişi ABŞ diplomatik çərçivəsinin soyqırımı məqsədləri naminə istifadə olunmasıdır. Bu isə guya, Birləşmiş Ştatların nasist Almaniyasını yumşaltmaq siyasətinin risklər yaratması ilə eynilik təşkil edirmiş: “Ən bariz nümunə – 1930-cu illərdə nasist Almaniyasının yumşaldılması siyasəti, o cümlədən 1938-ci il Münhen sazişidir ki, bu da müharibənin qarşısını almadı, əksinə, aqressiyanı gücləndirdi”.

*

Göründüyü kimi, “lemkinçilərin”, loru dildə desək, nə yeyib-içdikləri qeyri-müəyyəndir. Necə başlənəsən ki, belə cəfəngiyyat uydura biləsən? Həqiqətən, dəhşətli durum var. Bəşəri dəyərlərlə bu sayaq manipulyasiya və tarixin iyrənc interpretasiya metodundan bəhrələnmə qətiyyən ağlabatan deyil. Rafael Lemkin məhz buna görə məyus olardı. Çünki onun dövriyyəyə gətirdiyi soyqırımı termini siyasi alətə, hoqqabazlıq predmetinə çevrilib.

Ümumən, Lemkin İnstitutunun hoqqabazlıqlarının sayı-hesabı yoxdur. Qurum ötən beş ildə Azərbaycana qarşı olmazın hədyanlar yağdırıb. Əlbəttə, bir çox hallarda təşkilatın dövriyyəyə buraxdığı narrativlər rəsmi İrəvanın anti-Azərbaycan fəaliyyəti ilə uzlaşıb və bəzən elə təəssürat yaranıb ki, hər iki qütb bir-biri ilə əlaqədədirlər. Şübhəsiz, əlaqə olub da. Amma...

Əlaqədən söz düşmüşkən, onu da deyək ki, Lemkin İnstitutunun erməni lobbi və diaspor təşkilatları ilə işbirliyi məlumdur. Bir çox ekspertlərin bildirdiyinə görə, qurumun mövcudluğu erməni diasporunun “soyqırımı sənayesi”nə əsaslanır. Bu “sənaye” isə “soyqırımı tədqiqatçıları” üçün gəlir mənbəyi rolunu oynayır.

Digər tərəfdən, xaricdə özünü alim adlandıran bir çoxları saxta soyqırımı narrativinə əsaslanıb özlərinə asan karyera qururlar. Axı mövcud istiqamətdə hansısa orijinal araşdırma aparmağa, əziyyət çəkməyə ehtiyac yoxdur. Cəfəngiyyatı bəzəyib asanlıqla elm aləminə atılanlar kitab satışlarından və nəşrlərindən, çıxışlardan, tədqiqat qrantlarından ciddi gəlir götürürlər. Yeri gəlmişkən, Lemkin İnstitutunun idarəçiliyində bu cür “alimlərə” rast gəlmək mümkündür. Onlar əvvəl 1915-ci ilin saxta soyqırımı üzərinə köklənirdilər. İndi isə özlərinə daha bir “yem” – “Artsax soyqırımı” tapıblar.

*

Sonda onu da bildirək ki, erməni lobbi və diaspor təşkilatlarının, habelə, onların əli ilə hərəkətə gətirilən ayrı-ayrı qurumların, elə Lemkin İnstitutunun özünün ortaya atdığı tezislərin baş nazir Nikol Paşinyan administrasiyasının daha real xarici siyasət yürütmək cəhdlərini zəiflətdiyini iddia edənlər var. Deməli, üfüqdə sülh perspektivinin göründüyü hazırkı dövrdə rəsmi İrəvanın belə mənfi təmayüllərə, keçmişin xiffətinə köklənmiş anti-Azərbaycan mahiyyətli qərəzli bəyanatlara, həmçinin saxta “soyqırımı alimlərinin” legitimliyinə meydan oxuması lazımdır.

Bəlli, hətta xaricdəki lobbi və diaspor, daxildəki revanşist və şovinist kəsim Nikola qarşı çıxsa da, erməni iqtidarının hansısa formada Azərbaycan ərazilərinə iddia motivini daşıyan çağırışlara münasibətdə əks fikir bildirməsi çox önəmlidir. Hesab edirik ki, bu, Bakı və İrəvan arasında daha səmimi mühitin formalaşmasına şərait yaradar, eyni zamanda, Lemkin İnstitutu və bəşəri dəyərlərlə ticarətə girişmiş sərsəm təşkilatları susdurar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan çinlilər üçün cəlbedici məkandır

**(əvvəli 1-ci səhifədə)**

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Çinin Tiencin şəhərində “ŞƏT plyus” formatında görüş zamanı çıxışında deyib: “Azərbaycan ilə Çin arasındakı qarşılıqlı fəaliyyət ikitərəfli gündəliyin bütün spektri üzrə möhkəmlənir. Bu, siyasi, iqtisadi-ticari, sərmayə, enerji, nəqliyyat-logistika sahələrini, rəqəmsal iqtisadiyyatın, elm və texnologiyanın, təhsil və mədəniyyətin inkişafını ehtiva edir. Bu ilin iyul ayından bəri hər iki ölkənin vətəndaşları üçün vizasız rejim tətbiq olunur ki, bu da turizmin inkişafına təkan verir”.

Vizasız rejimin tətbiqi iki ölkə arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu, onun yüksələn xətt üzrə inkişaf etdiyini və strateji tərəfdaşlığın keyfiyyətcə daha yüksək səviyyəyə keçdiyini göstərir. Yeni qaydaya əsasən, Azərbaycan və Çin vətəndaşları iyulun 17-dən qarşılıqlı şəkildə 30 günədək vizasız səfər etdirə bilirlər. Ümumilikdə bir il ərzində 180 günü keçməmək şərtilə ölkələr arasında sərbəst gediş-gəliş mümkündür.

Bu cür qarşılıqlı gediş-gəlişlər iqtisadi, mədəni, elmi və sosial sahələrdə əməkdaşlığın inkişafında əvəzsiz rol oynayır. Məhz bu kontekstdə viza rejiminin aradan qaldırılması təkcə dövlətlərarası münasibətlərin inkişafına deyil, həm də xalqlar arasında inam və etimadın güclənməsinə



zəmin yaradır. Eyni zamanda, humanitar və iqtisadi münasibətlərin dərinləşməsi baxımından da bu qərarın əhəmiyyəti böyükdür. Nəzərə almaq lazımdır ki, Çin hazırda dünyanın ən iri turist ixracatçısıdır və onun vətəndaşlarının səfər etdiyi ölkələr arasında Azərbaycan da var. Onların diqqətini yalnız Bakı şəhərinin memarlıq və tarixi abidələri deyil, eyni zamanda, Azərbaycanın müxtəlif bölgələri cəlb edir. Məsələn, Şəki şəhərindəki Xan Sarayı, qədim karvansaraylar və ipəkçilik ənənələri, Qəbələnin füsunkar dağ mənzərələri və müasir turizm infrastrukturu, Nic kəndindəki dini və etnik müxtəliflik, Şamaxıda yerləşən Diri Baba türbəsi və Cümə məscidi, Nabranın dəniz–meşə sintezi, İsmayıllının tarixi Lahıc qəsəbəsi və oradakı xalq sənətkarlığı çinli turistlər üçün xüsusi maraq doğurur. 2024-cü ildə Çinli turistlərin ən çox ziyarət etdikləri bölgələr sırasında Naftalan birinci yeri tutub. Ardınca Qax, Qusar, Qəbələ, Şəki, Quba və Gəncə gəlir.

***

Hazırda digər turizm mərkəzlərinin təbliği istiqamətində də tədbirlər görülür. Çin turizm bazarında Azərbaycan haqqında məlumatlılığın artırılması və bu bazarda iştirakın gücləndirilməsi məqsədilə Çinin müxtəlif şəhərlərində təqdimatlar keçirir, turizm şirkətləri arasında biznes görüşləri təşkil edilir. Bakı ilə Pekin arasında həyata keçirilən AZAL reysləri və “Çin Cənub Hava Yolları” vasitəsilə Urumçi şəhərinə olan birbaşa uçuşlar isə bu əlaqələrin coğrafi əlçatanlığını artırır.

Bir faktı da xüsusilə qeyd etmək yerinə düşərdi. Belə ki, turizm sahəsində uğur qazanmaq üçün yalnız logistika və reklam kifayət deyil. Çinin özünəməxsus səyahət davranışları da nəzərə alınmalıdır. Məsələn, Çinli turistlər xarici ölkələrin mədəniyyətini tanımaq istəsələr də, səfərləri zamanı adətən öz milli mətbəxlərinə üstünlük verirlər. Buna görə də ictimai iaşə müəssisələrində Çin mətbəxi ilə bağlı təkliflərin artırılması və bu sahədə çeşidli menyuların təqdim olunması vacibdir. Bununla yanaşı, turizm paketlərinin qiymət siyasəti, marşrutların düzgün planlaşdırılması, xidmət keyfiyyəti və fərdi tələblərə uyğun məhsulların hazırlanması kimi məsələlər də ciddi təhlil olunmalı və praktik addımlar atılmalıdır. Bunları vaxtında qura bilsək, vizasız rejimin tətbiqi regional turizmin inkişafına mühüm təsir göstərəcək. İstənilən halda, viza rejiminin ləğvi ilə qarşılıqlı turizm axınında ciddi artım gözlənilir.

Yada salaq ki, Çin dünyanın ən böyük turist ixracatçısı kimi beynəlxalq bazarda mühüm rol oynayır. Onların bir ildə xərcləri 250 milyard dollar təşkil edir. Bu böyük rəqəmdir. 150 milyon çinli turistin cəmi 1 faizi Azərbaycana səfər etsə, ölkəmizə böyük gəlir gətirərdi. Əgər bir çinli turistin orta xərci 1000 dollar olarsa, 1,5 milyon turistin Azərbaycana gəlməsi ildə 1,5 milyard dollar qazanc deməkdir.

Bunlar perspektiv üçün nəzərdə tutulan göstəricilərdir. Reallıqda isə, ötən il Çindən Azərbaycana gələn turistlərin sayı 1,9 dəfə artaraq 45 minə çatıb. Bu ilin birinci yarısında Çindən gələn turistlərin sayında 60 faiz artım qeydə alınıb. Yəni artım tempi gələcəyə böyük ümidlər yaradır. Bu, təkcə turizm deyil, həmçinin, nəqliyyat, ictimai iaşə, mehmanxana və digər xidmət sahələrinin inkişafına təkan verəcək. Yeni iş yerlərinin açılması, regionların iqtisadi aktivliyinin artması və yerli sahibkarlığın genişlənməsi baxımından bu proses strateji əhəmiyyət daşıyır. Eyni zamanda, bu artım vergi gəlirlərinin çoxalmasına və dövlət büdcəsinə əlavə vəsaitin daxil olmasına səbəb olacaq.

Beləliklə, vizasız rejim Azərbaycanın beynəlxalq turizm bazarında daha cəlbedici mövqe qazanmasına, xüsusilə də Çin kimi nəhəng bir bazarda tanınmasına, regionların turizm xəritəsində daha görünən olmasına və ölkənin dayanıqlı turizm inkişaf strategiyasına uyğun olaraq uzunmüddətli iqtisadi faydalar əldə etməsinə real zəmin yaradır.

***

Viza rejiminin ləğvi həm də iqtisadi münasibətlərin dərinləşməsinə xidmət edir.



Hazırda iki ölkə arasında iqtisadi sahədə əməkdaşlıq yeni mərhələyə daxil olub. Artım tempi ilə diqqət çəkir. 2015-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 561 milyon dollar təşkil edirdisə, bu rəqəm 2024-cü ildə 3,7 milyard dollara qədər artıb. Bu ilin yanvar-iyul aylarında Azərbaycanla Çin arasında ticarət əməliyyatlarının həcmi 2,5 milyard ABŞ dolları təşkil edib. Ötən ilin eyni aylarındakı göstərici ilə müqayisədə 26,7 faiz artım qeydə alınıb. Bununla da Çin hesabat dövrü ərzində Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında dördüncü pillədə qərarlaşıb. Çin şirkətləri hazırda Azərbaycanda sənaye, enerji, informasiya texnologiyaları, ticarət və kənd təsərrüfatında fəaliyyət göstərirlər. Çin investorlarının Azərbaycan iqtisadiyyatına marağı getdikcə artır və bu, qarşıdakı illərdə daha böyük sərmayələrin cəlb ediləcəyini göstərir.

2024-ci ilin əvvəlinə olan məlumata görə, Çin Azərbaycan iqtisadiyyatına 931 milyon dollar, Azərbaycan isə Çin iqtisadiyyatına təxminən 1,8 milyard dollar investisiya yatırıb. Artıq Çində 6 Azərbaycan Ticarət Evi fəaliyyət göstərir. Bu artım təkcə rəqəmlərlə deyil, eyni zamanda, iqtisadi əməkdaşlığın strukturunda, sənaye, kənd təsərrüfatı, yüngül sənaye, energetika və digər sahələrdəki birgə layihələrlə müşahidə olunur. Azərbaycan həm də “Bir kəmər, bir yol” təşəbbüsünün fəal iştirakçısıdır və bu təşəbbüs çərçivəsində Asiya ilə Avropa arasında alternativ nəqliyyat marşrutlarının inkişafına töhfə verir. Xüsusilə Orta Dəhliz Azərbaycanın tranzit ölkə kimi rolunu xeyli gücləndirib. Bu barədə dövlətimizin başçısı deyib: “Şərq–Qərb və Şimal–Cənub dəhlizləri yeni iqtisadi və nəqliyyat perspektivləri yaradıb. Azərbaycan Ələt Beynəlxalq Dəniz Limanının buraxılış qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona çatdırmaq niyyətindədir. Orta Dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. 2022-ci ildən bəri Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımaların həcmi təxminən 90 faiz artıb. Yüklərin bu dəhliz üzrə keçid müddəti əhəmiyyətli dərəcədə azalıb”.

Azərbaycan regionda enerji sektorunda da lider ölkələrdən biridir. Ölkəmiz yalnız enerji ixracatçısı kimi deyil, həm də innovativ texnologiyalar və ekoloji təmiz enerji mənbələrinin inkişaf etdirilməsi üzrə regional mərkəz kimi öz mövqeyini gücləndirir. Çinlə bu sahədə əməkdaşlıq da genişləndirilir. Çin “yaşıl enerji” texnologiyalarında qabaqcıl təcrübəyə malikdir və bu təcrübənin Azərbaycanın enerji sektoruna transferi ölkənin enerji təhlükəsizliyini gücləndirəcək, həm də ekoloji dayanıqlılıq səviyyəsini yüksəldəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Bakının siyasi qətiyyəti – Minsk qrupunun aqibəti

**ATƏT-in Minsk qrupu uzun illər nəticəsiz fəaliyyəti ilə məhv olmağa məhkum olduğunu göstərdi, Prezident İlham Əliyevin qətiyyətli və prinsipial siyasəti isə Azərbaycanın beynəlxalq səhnədə real təsir göstərə bilən gücə malik olduğunu sübut etdi.**




Cənubi Qafqazın son otuz illik siyasi gündəminin mərkəzində Qarabağ münaqişəsi dayanırdı. 1988-ci ildən başlayan etnik separatizm və Ermənistanın hərbi işğal siyasəti nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olundu, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Münaqişənin beynəlxalq müstəviyə daşınması qaçılmaz idi. 1992-ci ildə ATƏT (o zamankı ATƏM) çərçivəsində yaradılan Minsk qrupu kağız üzərində problemin sülh yolu ilə həllinə yönəlmiş ən geniş legitim mexanizm idi. Onun həmsədrləri ABŞ, Rusiya və Fransa idi – bu isə həm Qərbin, həm də Rusiyanın prosesə paralel təsir imkanlarını təmin etməli idi.



Zaman keçdikcə Minsk qrupu özünün institusional gücündən daha çox simvolik statusu ilə seçildi. Formal danışıqlar, nəticəsiz bəyanatlar və reallıqdan uzaq təkliflər prosesin əsas xətlərinə çevrildi. Bəs Minsk qrupuna niyə bu qədər ümid bağlanmışdı? İlkin mərhələdə həm Azərbaycan, həm də Ermənistan Minsk qrupuna müəyyən ümidlə yanaşırdı. Xüsusən də ABŞ, Rusiya və Fransanın həmsədrliyi münaqişənin həllinə "beynəlxalq zəmanət" görüntüsü verirdi. Çünki prosesə supergüclərin qoşulması tərəflərdə belə bir təəssürat yaradırdı ki, böyük dövlətlərin təzyiqi ilə nəticə əldə oluna bilər. Azərbaycan üçün bu amil xüsusilə önəmli idi. Çünki 1990-cı illərin əvvəllərində ölkəmizin suverenliyi yenicə bərpa olunmuş, dövlət institutları zəif idi və beynəlxalq legitimlik qazanmaq həyati əhəmiyyət daşıyırdı. Minsk qrupu Bakı üçün sülh yolu ilə haqqın bərpasına bir imkan kimi görünürdü.

Fəqət reallıq çox tez üzə çıxdı. Azərbaycan torpaqları işğal altında idi, yüz minlərlə insan evindən didərgin salınmışdı və beynəlxalq hüququn bütün əsas normaları olan suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı pozulmuşdu. Buna baxmayaraq, Minsk qrupu faktiki olaraq bu fundamental prinsiplərə söykənmək əvəzinə, prosesin formal idarəçisi rolunda çıxış etdi. Ermənistanın qərəzli mövqeyi, işğalı legitimləşdirmə cəhdləri və həmsədrlərin maraqlarının üst-üstə düşməməsi vəziyyəti daha da mürəkkəbləşdirdi.

Azərbaycan sülh yolu ilə həllə ümid etsə də, vasitəçilərin qeyri-obyektivliyi və ikili standartları Bakının gözləntilərini puça çıxardı. Siyasətin reallığı nəzəriyyədən fərqli idi. Həmsədrlərin maraqları üst-üstə düşmürdü. Rusiya status-kvonu saxlamaqla region üzərində təsirini gücləndirmək istəyirdi, Fransa erməni diasporunun təsiri altında tərəfli mövqe sərgiləyirdi, ABŞ isə Cənubi Qafqazı daha çox Rusiya ilə rəqabət müstəvisində qiymətləndirirdi. Məhz buna görə Minsk qrupu uzun müddət "danışıqlar aparan", amma heç vaxt nəticə verməyən mexanizm kimi yadda qaldı.

*

Uzun illər davam edən danışıqlar prosesi göstərdi ki, Minsk qrupu nə münaqişənin qarşısını ala bildi, nə də həllinə real töhfə verdi. Onun fəaliyyəti faktiki olaraq status-kvonun qorunmasına xidmət edirdi. Bu müddət ərzində Ermənistan işğal etdiyi torpaqlarda mövqeyini möhkəmləndirdi, hüquqları pozulmuş xalqın səsini beynəlxalq platformada demək isə daha da çətinləşdi. Bəs Minsk qrupunun fəaliyyətsizliyinin əsas səbəbi nə idi? Əsas səbəb böyük güclərin maraqlar ziddiyyəti və "dondurulmuş münaqişə"ni geosiyasi alət kimi istifadə etmək istəməsi idi. Vasitəçilər üçün münaqişənin davam etməsi həllindən daha əlverişli idi, çünki bu vəziyyət onlara region üzərində təsir rıçaqlarını qorumağa imkan verirdi. Minsk qrupunun fəaliyyətindəki bu tıxac təkcə institutun zəifliyini göstərmədi, eyni zamanda beynəlxalq vasitəçilik mexanizmlərinin obyektivlik problemi ilə bağlı dərs verdi. Azərbaycan sülhə hazır idi, amma vasitəçilərin qərəzli mövqeyi və hərtərəfli balanssız yanaşması prosesi səmərəsiz etdi, nəticədə status-kvo qorundu, haqq isə gözləmə mövqeyinə salındı.

Prezident İlham Əliyevin siyasi kursu status-kvonun qorunmasını qəbul etmədi. Bakı açıq şəkildə bəyan etdi ki, diplomatik mexanizmlər nəticə vermirsə, Azərbaycan öz gücü və iradəsi ilə məsələni həll edəcək. Azərbaycanın qətiyyətinin əsas dayaqları isə bir neçə paralel element üzərində qurulmuşdu. Hərbi gücün artırılması və modernizasiya proqramları ona status-kvonu dəyişmək və faktiki reallıqları təyin etmək imkanı verdi. Diplomatik legitimlik vasitəsilə Bakı öz haqqını beynəlxalq hüquq çərçivəsində möhkəmləndirdi; BMT Nizamnaməsi və Helsinki prinsiplərinə istinad Azərbaycanın beynəlxalq səhnədə sülh tərəfdarı kimi mövqeyini gücləndirdi. Eyni zamanda, Prezident İlham Əliyevin prinsipial liderliyi və ardıcıl ritorikası qətiyyətli mövqenin ideoloji və siyasi dayağı oldu.

Bütün bunlar göstərdi ki, Azərbaycan yalnız güc tətbiqi ilə deyil, həm də diplomatik, həm də hüquqi çərçivədə məsələni həll etməyə hazırdır. Rəsmi Bakının bu strategiyası Minsk qrupunun fəaliyyətinin məhdudiyyətlərini aşmağa və regionda yeni balans yaratmağa xidmət edirdi.

*

2020-ci ilin payızında baş verən 44 günlük Vətən müharibəsi Cənubi Qafqazın siyasi mənzərəsini kökündən dəyişdi. Azərbaycan ordusu işğal altında olan torpaqları hərbi gücü və strateji planlaması ilə azad etdi, regionda status-kvonu sarsıtdı və uzun illər nəticəsiz qalmış danışıqların mənasızlığını açıq şəkildə göstərdi. Maraqlıdır ki, müharibə Minsk qrupunun hansı zəifliklərini üzə çıxardı? 44 günlük müharibə üç əsas zəifliyi açıq şəkildə göstərdi. Birincisi, Minsk qrupunun münaqişənin qarşısını almaq qabiliyyətinin olmaması; qurum illərlə davam edən gərginliyi əngəlləyə bilmədi. İkincisi, qrupun sülh planlarının reallıqdan uzaqlığı; uzun illər hazırlanmış sənədlər və layihələr torpaqları işğal altında saxlayan vəziyyəti dəyişə bilmədi. Üçüncüsü, vasitəçilərin Azərbaycanın iradəsini və gücünü nəzərə almayan mexanizmlərinin mənasızlığı; Azərbaycan faktiki olaraq hərbi və diplomatik imkanları ilə yeni reallıq yaratdı və qrupun rolu simvolikləşdi. Proses, eyni zamanda beynəlxalq siyasi analitiklər üçün dərs oldu: institutların formal mövcudluğu nəticə vermirsə, onları davam etdirmək yalnız vaxt itkisidir. Azərbaycan həm hərbi, həm diplomatik, həm də hüquqi gücünü göstərərək regionda yeni balans yaratdı və Minsk qrupunun fəaliyyətinin real təsirini tarixi sonluğa çatdırdı.

44 günlük müharibədən sonra Minsk qrupunun həmsədrləri qurumu "diriltməyə" çalışsalar da Azərbaycan açıq şəkildə bildirdi ki, artıq bu quruma ehtiyac yoxdur. Prezident İlham Əliyevin "Minsk qrupu artıq yoxdur" ifadəsi sadəcə beynəlxalq münasibətlər sistemində bir institutun faktiki sonunu elan edən siyasi qərar idi. Azərbaycan regionda reallıqları dəyişən tərəf olduğunu və beynəlxalq hüququn ərazi bütövlüyü prinsiplərinə söykənərək öz mövqeyini qorumağa hazır olduğunu göstərdi. Vasitəçilər isə prosesin kənarında qaldı və Azərbaycanın siyasi iradəsini qəbul etmədən hər hansı səmərəli addım ata bilmədilər. Minsk qrupunun tarixi aqibəti yalnız institusional uğursuzluq deyil, eyni zamanda Azərbaycanın qətiyyətli siyasəti və prinsipial diplomatik mövqeyi ilə beynəlxalq sistemdə bir nümunə olaraq qeyd olundu.

*

Avqustun 8-də Ağ Evdə ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə keçirilən üçtərəfli görüş Cənubi Qafqaz tarixində əsl dönüş nöqtəsi oldu. Prezident İlham Əliyev danışıqlara iki prinsipial şərtlə oturdu: Ermənistan konstitusiyasında dəyişikliklərin aparılması və Minsk qrupunun fəaliyyətinin tamamilə dayandırılması. Minsk qrupunun dayandırılması isə köhnə və nəticəsiz mexanizmi ləğv edərək yeni regional diplomatiyanın yolunu açırdı. Artıq beynəlxalq vasitəçilərin formal rolu minimuma endirildi və prosesin idarəedici tərəfi faktiki olaraq regional güc mərkəzləri və Azərbaycan oldu.

Trampın vasitəçiliyi Minsk qrupunun tarixi sonunu Qərbin də qəbul etməsi anlamına gəlirdi. ABŞ bu vasitəçiliklə yeni regional formatın liderliyini üzərinə götürdü və Azərbaycanın tələblərinin beynəlxalq səviyyədə legitimliyini təmin etdi. Görüş göstərdi ki, Azərbaycanın qətiyyətli siyasəti, hüquqi və diplomatik hazırlığı beynəlxalq vasitəçilərin səmərəsizliyini aradan qaldırmaqla yanaşı, yeni regional sülh arxitekturasının formalaşmasını təmin edə bilər.

Vaşinqton görüşü və Minsk qrupunun rəsmən tarixə qovuşması Cənubi Qafqazda yeni siyasi reallıq yaratdı. Azərbaycan artıq həm hərbi, həm siyasi resursları ilə regionun əsas söz sahibi mövqeyinə yüksəldi. Yeni vasitəçilik formatı formalaşdı. Artıq münaqişənin həlli qlobal institutların formal platformaları ilə deyil, lokal və regional balans üzərində qurulurdu.

Minsk qrupunun aqibəti beynəlxalq diplomatiya üçün əyani dərs oldu: institutların mövcudluğu onları səmərəli etməyə yetərli deyil, real nəticə doğurma qabiliyyəti ölçü götürülməlidir. Əgər institutlar real nəticə doğurmursa, onlar yalnız siyasi dekor rolunu oynayır. Azərbaycan bu dekoru aradan qaldıraraq həm regionun gələcəyi üçün yeni imkanlar yaratdı, həm də beynəlxalq münasibətlər tarixində presedent təşkil etdi. İlham Əliyevin siyasəti açıq şəkildə sübut etdi ki, qətiyyət və prinsipiallıq beynəlxalq diplomatiyada konkret nəticələr əldə etməyə imkan verir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Le Pen müxalifəti Fransanı yenidən silkələyir

## *Sentyabrın 8-də ölkədə etimadsızlıq səsverməsi keçiriləcək*

**Fransanın siyasi landşaftı Beşinci Respublikanın quruluşundan bəri ən maraqlı transformasiya dövrlərindən birini yaşayır. Onillər boyu Fransanın siyasi palitrasını formalaşdıran ənənəvi sol-mərkəz və sağ-mərkəz qütbləşməsi Prezident Emmanuel Makronun 2017-ci il seçki uğurundan sonra parçalanaraq, yerini proqnozlaşdırılması çətin olan yeni siyasi mənzərəyə verdi. Bu yeni siyasi reallığın mərkəzində uzun illər "sistem xarici" hesab edilən ifrat sağın tədricən siyasi sistemin ayrılmaz hissəsinə, hətta potensial hakim qüvvəsinə çevrilməsi dayanır. Bu çoxşaxəli dəyişikliklərin kulminasiyası sentyabrın 8-də keçiriləcək etimadsızlıq səsverməsi ola bilər.**



Siyasi böhranın katalizatoru rolunu oynayan əsas amil Fransa hökumətinin üzləşdiyi kəskin və struktur xarakterli maliyyə-büdcə problemləridir. Cari ilin ikinci yarısına daxil olarkən ölkənin makroiqtisadi göstəriciləri ciddi narahatlıq mənbəyi idi və hökumətin manevr imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı. Milli Statistika və İqtisadi Araşdırmalar İnstitutunun (INSEE) rəsmi məlumatlarına görə, Fransanın ümumi dövlət borcu 2025-ci ilin birinci rübünün yekununda 3,345 trilyon avro kimi rekord səviyyəyə çataraq ölkənin Ümumi daxili məhsulunun (ÜDM) 114 faizini aşmışdı. Bu göstərici Avropa İttifaqının Maastrixt meyarları ilə müəyyən edilmiş 60 faizlik yuxarı limiti demək olar ki, iki dəfə üstələyir və Fransanı Avrozonanın ən borclu ölkələri arasında Yunanıstan və İtaliya ilə bir sıraya qoyurdu.

Məhz bu ağır iqtisadi reallıqlar qarşısında Baş nazir Fransua Bayru ölkənin maliyyə nizamını bərpa etmək və Brüsselin potensial sanksiyaları ilə nəticələnə biləcək kəsir prosedurundan yayınmaq məqsədilə radikal addımlar atmaq məcburiyyətində qaldı. Təqdim edilən 43,8 milyard avroluq genişmiqyaslı büdcə kəsintisi və qənaət paketi Fransa cəmiyyətinin həssas sosial təbəqələrinə birbaşa toxunan qeyri-populyar və partlayıcı tədbirləri özündə ehtiva edirdi.

Bayru və Makron hakimiyyəti bu sərt və cəmiyyəti qıcıqlandıran tədbirləri Milli Assambleyadan keçirmək üçün parlamentdə mütləq çoxluğa malik olmadıqlarını dərk edərək siyasi oyuna əl atdılar. Onların bütün strateji planı müxalifətin ən güclü fiquru olan Marin Le Peni çətin vəziyyətə salaraq neytrallaşdırmaq üzərində qurulmuşdu. Hökumət nümayəndələri güman edirdilər ki, Avropa Parlamentinin vəsaitlərini mənimsəmə ittihamı ilə birinci instansiya məhkəməsində məhkum edilmiş və apellyasiya məhkəməsinin qərarını gözləyən Le Pen növbədənkənar seçkilərin təyin olunması tələbindən çəkinəcək. Çünki yeni seçkilər onun davam edən hüquqi prosesi fonunda həm parlament mandatını itirmək, həm də seçkilərdə iştirak hüququndan tamamilə məhrum olmaq riskini yaradırdı. Nəzəri cəhətdən məntiqli görünən bu yanaşma, əslində fransız siyasətinin psixoloji qatlarını, Le Penin iti siyasi instinktlərini və onun elektoratının motivasiyasını düzgün oxuya bilməyən strateji bir səhv idi.

Le Penin cavabı gecikmədi, sərt və bütün hesabları alt-üst edən oldu. Etimad səsverməsi təşəbbüsünün rəsmən elan edilməsindən cəmi bir neçə saat sonra mətbuat konfransı keçirərək Milli Birlik partiyasının bütün deputatlarının hökumətin əleyhinə səs verəcəyini qətiyyətlə bəyan etdi. Onun bu addımı hökumətlə ifrat sağ arasında hər hansı pərdəarxası razılaşma, taktiki oyun və ya son dəqiqə kompromisi ola biləcəyinə dair bütün spekulyasiyalara son qoydu.

Le Pen Bayrunun qənaət paketini "Fransanın sosial modelinə, işləyən insana və orta sinfə qarşı amansız bir hücum" kimi xarakterizə edərək səkkiz illik "Makronizm" dövrünün ölkəni iqtisadi tənəzzülə, sosial parçalanmaya və milli suverenliyin itirilməsinə sürüklədiyini iddia etdi. Onun qətiyyətli mövqeyi partiyasının son illərdə həyata keçirdiyi uzunmüddətli strategiyanın məntiqi davamı idi: özünü Makron administrasiyasının etibarlı və xalqa yaxın alternativi kimi təqdim etmək, siyasi gündəmi müəyyənləşdirən əsas qüvvəyə çevrilmək və 2027-ci il prezident seçkiləri üçün mümkün olan ən əlverişli mövqeni təmin etmək. Hökumətin mövqeyi daha da zəiflədi, çünki Bayru mühüm əhəmiyyət daşıyan səsvermə ərəfəsində müxalifətlə məsləhətləşməməsini cəmiyyətin qeyri-ciddi və təkəbbürlü hesab etdiyi "yay məzuniyyəti" bəhanəsi ilə izah etdi.

Hökumətin süqutunun qaçılmaz hala gəlməsi ilə diqqətlər Yelisey Sarayına və Prezident Emmanuel Makronun atacağı addımlara yönəldi. Konstitusiya prezidentə bir sıra seçimlər versə də parçalanmış parlament mənzərəsində onların hər biri risklərlə doludur. Müxalifətin əsas tələbi Milli Assambleyanın buraxılması və növbədənkənar seçkilərin keçirilməsidir. "Bu siyasi dalandan yeganə çıxış yolu seçki qutusuna qayıtmaqdır", – deyə Marin Le Penin Milli Birlik partiyasının sədri Jordan Bardella ötən həftə "TF1" telekanalına verdiyi müsahibədə bildirib. "Emmanuel Makron özünün səbəb olduğu bu institusional iflici tanımalı və ya parlamentinin buraxmalı, ya da təbii ki, istefasını təqdim etməlidir".

Sorğular göstərir ki, ictimaiyyət yenidən seçkiyə getməyin tərəfdarıdır. "Elabe" sorğu mərkəzi tərəfindən verilən nəticələrə görə, respondentlərin 69 faizi Milli Assambleyanın buraxılmasını, 67 faizi isə Prezident Makronun istefasını dəstəklədiklərini bildirib. Lakin bu, Makron üçün yüksək riskli oyundur. Sorğular Marin Le Penin Milli Birlik partiyasının 35–40 faiz səslə açıq fərqlə qalib gələcəyini göstərir. Bu isə Fransa siyasətində 'cohabitation' (birgə yaşayış) ssenarisini gündəmə gətirir. Makron baş nazir postuna ifrat sağçı lider Jordan Bardellanı təyin etməyə məcbur ola bilər.

Siyasi və hüquqi qarşıdurmanın mərkəzində Marin Le Pen dayanır. Onun şəxsi taleyi Milli Birlik Partiyasının strateji hədəfləri və Fransanın gələcək kursu ilə sıx bağlıdır. Partiyanın gənc və xarizmatik sədri Jordan Bardellanın Avropa Parlamenti seçkilərində qazandığı qələbə və xüsusən gənclər arasında artan nüfuzu partiyanın imicini yumşaltmaq strategiyasının uğuru sayılsa da əsas ideoloji mayak və 2027-ci il prezident seçkilərinin şübhəsiz namizədi hələ də Le Pendir. Lakin onun qarşısında ciddi hüquqi baryer var: Avropa Parlamentində köməkçilərin saxta işə götürülməsi ilə bağlı məhkəmə işi. Buna baxmayaraq, Le Pen və hüquqşünaslar komandası seçki qadağasını konstitusiyaya zidd sayır və bütün hüquqi müdafiə imkanlarından yararlanmağa hazırlaşır.

Fransadakı bu daxili siyasi böhranın təsirləri isə təkcə ölkə sərhədləri ilə məhdudlaşmır, həm də Parisin yürütdüyü xarici siyasətə, xüsusilə də Cənubi Qafqaz kimi həssas regionlardakı mövqeyinə birbaşa təsir göstərir. Prezident Emmanuel Makronun hakimiyyətinin ilk dövrlərində Azərbaycanla münasibətlər, enerji və iqtisadi maraqlar çərçivəsində daha çox praqmatik xarakter daşıyırdı. Lakin 2020-ci il İkinci Qarabağ müharibəsindən sonra Parisin mövqeyində kəskin dəyişiklik müşahidə olundu. Fransa Azərbaycana qarşı sərt mövqe nümayiş etdirməyə və Ermənistana açıq şəkildə siyasi və hərbi dəstək verməyə başladı. "Vaşinqton paktı" ilə formatlanan yeni sülh danışıqları prosesi və ABŞ-ın vasitəçilik rolunun artması, faktiki olaraq Fransanın Rusiya və ABŞ ilə birlikdə həmsədr olduğu ATƏT-in Minsk qrupunu funksional olaraq iflic vəziyyətinə saldı.

Bu yeni reallıq qarşısında Makron administrasiyası Cənubi Qafqaz siyasətində yeni bir yanaşma nümayiş etdirməyə, Avropa İttifaqı platforması vasitəsilə regionda sabitliyin bərqərar olmasına çalışdığını göstərdi. Lakin 8 sentyabr səsverməsinin nəticəsi və potensial yeni seçkilər fonunda Fransanın Cənubi Qafqazda hansı siyasəti yürüdəcəyi böyük bir sual altındadır. İfrat sağçı Milli Birliyin rəhbərlik edəcəyi bir hökumətin Makronun liberal-intervensionist xəttindən fərqli, daha çox milli maraqlara söykənən xarici siyasət kursu seçməsi ehtimalı Parisin Cənubi Qafqaz siyasətində daha bir kəskin dönüşə səbəb ola bilər.

8 sentyabrda keçiriləcək etimadsızlıq səsverməsi Beşinci Respublika üçün həm daxildə, həm də xaricdə yeni dövrün başlanğıcını qoyan dönüş nöqtəsi ola bilər. Hökumətin taleyi, Marin Le Penin siyasi gələcəyi və Fransanın Avropadakı rolu – bütün bu köklü sualların cavabı yaxın həftələrdə veriləcək.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Azərbaycanın "yaşıl" gələcəyinin yeni hədəfləri

**Prezident İlham Əliyevin Çinə səfəri çərçivəsində keçirdiyi görüşlər, birmənalı olaraq, qüdrətli Azərbaycan dövlətinin iqtisadi yüksəlişinin qorunması naminə konseptual baxışı ifadə edir. Şübhəsiz, Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan həm də Avropanın önəmli təminatçısıdır. Məhz bu potensialına görə ölkəmiz enerji əməkdaşlığı üzrə daim yeni aspektləri gündəmdə saxlayır, bu sahədə iqtisadi prioriteti müəyyənləşdirir.**

Avropaya artan enerji ixracına paralel olaraq, Suriya da daxil olmaqla 14 ölkəyə təbii qaz ixrac edən ölkəmiz təhlükəsiz və etibarlı enerji ötürücüsü rolunu daimstimullaşdırır. Ənənəvi enerji olan "mavi yanacağın"ın nəqlində liderlik mövqeyinə baxmayaraq ölkəmiz qlobal nizamda enerji böhranının aradan qaldırılması, ekoloji tələtümlərin minimuma endirilməsi naminə "yaşıl enerji"yə keçidi də aktuallaşdırıb. Məhz bu səbəbdən Azərbaycan dövləti gələcəkdə yeni iqtisadi dividendlər əldə olunması, həm də enerji ixracında liderlik mövqeyini qorumaq üçün ciddi addımlar atır.

Hazırda respublikamızın quruda 27 qiqavatdan çox külək və günəş enerjisi, Xəzər dənizində isə 157 qiqavat külək enerjisi potensialı mövcuddur. Eyni zamanda işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji potensialının həcmi 10 qiqavatdan çoxdur. Məhz buna görə strateji tərəfdaşlıq çərçivəsində Çinin "yaşıl enerji" sahəsində imkanları Azərbaycanın mövcud potensialını gerçəkləşdirməkdə əsas əməkdaşlıq istiqamətidir.

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 2-də Çinin Tiencin şəhərində



"Powerchina group" şirkətlər qrupunun icraçı vitse-prezidenti Xı Yınfen ilə görüşündə bu məsələ diqqət mərkəzində oldu. Söhbət zamanı şirkətin Azərbaycandakı fəaliyyəti yüksək qiymətləndirildi, "yaşıl enerji", su resurslarının idarə olunması, elektroenergetika və digər sahələrdə əməkdaşlıq müzakirə edildi. Günəş və külək stansiyalarının inşası, "ağıllı enerji sistemləri"nin tətbiqi və yerli mütəxəssislərin hazırlanması üzrə perspektivlər barədə də fikir mübadiləsi aparıldı. Səfər zamanı, "Sichian Sunsync Photovoltaic Technology Co" şirkətinin təsisçisi və sədri Sie İ ilə görüş də diqqətçəkən idi. Məsləhətləşmə zamanı Ələt Azad İqtisadi Zonasında yaxın gələcəkdə Günəş panellərinin istehsalı ilə bağlı ən müasir texnoloji standartlara cavab verəcək müəssisənin yaradılması ilə əlaqədar məsələlər müzakirə olundu.

Azərbaycan – Çin dialoqunda "yaşıl enerji" səhifəsinin böyük gələcəyi var. Xatırladaq ki, bu ilin aprel ayında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində bərpaolunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd imzalanıb. Bu sənədlər ümumilikdə 260 MVt gücündə günəş, 100 MVt-lıq üzən günəş elektrik stansiyalarının, 30 MVt gücündə batareya enerji saxlanc sisteminin, dənizdə minimum 2 QVt gücündə külək elektrik stansiyasının inşasını, daha 2 QVt gücündə külək enerjisi layihəsini, eləcə də bərpaolunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir.

COP29 çərçivəsində Energetika Nazirliyi ilə Çinin "PowerChina Resources Limited" və "TBEA Co., Ltd" şirkətləri arasında "yaşıl enerji" sahəsində anlaşma memorandumları imzalanıb. Bu il daha bir əlamətdar hadisəyə şahidlik etdik. "ACWA Power" şirkəti tərəfindən inşa edilən 240 meqavat gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasında" 9 turbin artıq quraşdırılıb. Bu stansiyanın fəaliyyəti ölkənin enerji balansında "yaşıl enerji"nin payını nəzərəçarpacaq dərəcədə artıracaq. İlkin hesablamalara əsasən burada ildə təxminən, 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu göstərici 220 milyon kubmetr təbii qaza qənaət etməyə, atmosferə 400 mindən artıq ton karbon emissiyasının buraxılmasının qarşısını almağa və 300 minə yaxın evin elektrik enerjisi ilə təmin edilməsinə imkan verəcək. Layihənin ümumi dəyəri 340 milyon dollardır.

Prezident İlham Əliyevin Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüşdə səsləndirdiyi fikirlərdən bir daha aydın olur ki, Azərbaycanın "yaşıl enerji" hədəfləri qlobal önəmini qoruyaraq reallaşacaq.

***Nurlan ABDALOV***
***XQ***

### Ekspert rəyi



*Vüqar BAYRAMOV,*
*Milli Məclisin deputatı*

Təbii ki, Prezidentin keçirdiyi görüşlərdə də müzakirə olunan məsələlər sırasında Çin investisiyalarının Azərbaycan iqtisadiyyatına cəlb edilməsi, qarşılıqlı layihələr, texnologiya transferi və digər həm Azərbaycan, həm də region üçün mühüm məqamlar xüsusi yer tutur.

Gözlənilir ki, Prezidentin keçirdiyi görüşlər nəticəsində xüsusən qeyri-neft sektoruna daha çox sərmayə qoyuluşuna şərait yaranacaq. Bu isə ilk növbədə "yaşıl enerji" sahəsində əməkdaşlığın gücləndirilməsi baxımından əhəmiyyətlidir. Çünki Azərbaycan Çinlə məhz bu istiqamətdə də əməkdaşlığı dərinləşdirmək niyyətindədir.

Son görüşlər və imzalanan anlaşmalar da əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açdı. Azərbaycan bir tərəfdən regionda, xüsusilə Cənubi Qafqazda "yaşıl enerji" sahəsinə böyük diqqət ayıran ölkədir. Digər tərəfdən, ölkəmiz 2030-cu ilədək "yaşıl enerji"-nin ümumi enerji balansındakı payını 35 faizə çatdırmağı, karbon emissiyalarını isə 40 faiz azaltmağı hədəfləyir.

Bu baxımdan aparılan təhlillər göstərir ki, Çinlə "yaşıl enerji" sahəsində əməkdaşlıq bir tərəfdən istehsal gücünün artmasına şərait yaradacaq, digər tərəfdən isə Azərbaycanın ixrac imkanlarını genişləndirəcək. Gözlənilir ki, bu əməkdaşlıq nəticəsində uzun müddətdir planlaşdırılan və müzakirə olunan "yaşıl enerji" ixracının reallaşdırılması mümkün olacaq.

### Ekspert rəyi

**Eldəniz ƏMİROV,**
**iqtisadçı-ekspert**



Azərbaycan "Xəzər-Avropa Birliyi Yaşıl Enerji Dəhlizi" layihəsinin əsasını Buxarestdə, iki Avropa dövləti və Gürcüstanla birgə qoyub. Artıq 2023-cü ildən Orta Asiya respublikalarından ölkəmizə bu layihəyə qoşulmaq üçün rəsmi müraciətlər daxil olub. Bunun ardınca isə Özbəkistan, Qazaxıstan və digər Mərkəzi Asiya ölkələri ilə ikitərəfli, həmçinin müxtəlif təşkilatlar çərçivəsində əməkdaşlıq formatları genişlənməyə başlayıb.

Çində keçirilən görüşlər də bu strateji xəttin möhkəmlənməsinə və dinamizminin artmasına mühüm töhfə verir. Çin bu gün dünyada alternativ enerji istehsalı üzrə ən böyük müəssisələrə sahibdir. Bir neçə gün öncə Çində yeni günəş stansiyasının açılışı da bunun bariz nümunəsidir.

Bütün bunları qeyd etməklə vurğulamaq istəyirəm ki, Azərbaycanın "yaşıl enerji" siyasəti ilə bağlı Çinlə münasibətlər, eləcə də Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilən görüşlər və ayrı-ayrı nümayəndələrlə aparılan danışıqlar ölkəmizin bu siyasətini dəstəkləyəcək. Azərbaycan isə öz növbəsində bu sektorun inkişafına mühüm töhfə verəcək

# Aqrar subsidiyalar bolluq və ucuzluğa aparır

**Qurum ölkə Prezidentinin 2019-cu il 27 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4-cü bəndinə müvafiq olaraq, 2026-cı il üzrə bitkiçilik sahəsində regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının, eləcə də əkin ehtiyaclarının müəyyən edilməsi barədə qərar qəbul edib.**

Məlum olduğu kimi, ötən ildən ölkədə avtomobil benzini və dizel yanacağının qiymətlərinin artımının müəyyən hissəsinin kompensasiya edilməsi məqsədilə dənli və dənli paxlalılar, kartof, tərəvəz və yonca bitkiləri, habelə təkrar əkinlər üzrə əkin subsidiyası artırılıb. Şuranın yeni qərarına əsasən 2026-cı ildə çəltik bitkisi üzrə əsas və təkrar əkinlər aparılmış torpaqların hər hektarına görə, müvafiq olaraq 380 manat və 120 manat əkin subsidiyası veriləcək.

Müasir suvarma sistemləri ilə təchiz olunmuş və belə şəbəkəsi olmayan qarğıdalı sahələrinin hər hektarına görə müvafiq olaraq 160 manat və 100 manat əkin subsidiyası veriləcək. İşğaldan azad edilmiş ərazilərdə isə müasir suvarma sistemləri ilə təchiz olunmuş qarğıdalı sahələrinin hər hektarına görə 270 manat subsidiya nəzərdə tutulur. Dəmyə sahələr üzrə subsidiya məbləği isə xeyli aşağı – 50 manat təşkil edəcək.

Digər dənli və dənli paxlalılara (buğda, arpa, çovdar, vələmir, qarabaşaq, noxud, lobya, mərci və s.) gəldikdə isə işğaldan azad edilmiş ərazilərdə müasir suvarma sistemləri təchiz olunmuş və olunmamış əkin sahələrinin hər hektarına görə müvafiq olaraq 400 manat və 100 manat subsidiya ayrılacaq. Ölkənin digər əraziləri üçün isə bu növ bitkilərin hər hektarına görə suvarma sistemlərinin tətbiqindən asılı olaraq 200 manatdan 290 manatadək əkin subsidiyasının verilməsi nəzərdə tutulur.

2026-cı ilin məhsulu üçün kartof, tərəvəz, bostan bitkiləri əkilmiş və müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrin hər hektarına görə müvafiq olaraq 360 manat, 310 manat və 280 manat subsidiya veriləcək. Müasir suvarma sistemləri olmayan əkin sahələri üzrə isə bu məbləğ müvafiq olaraq 300 manat, 250 manat və 220 manat təşkil edəcək.

İşğaldan azad olunmuş ərazilərdə üzümçülük sahəsi üzrə daha çox subsidiyanın verilməsi nəzərdə tutulur. Aqrar Subsidiya Şurasının qərarına əsasən 2025-ci il sentyabrın 1-dən 2026-cı il mayın 31-dək salınacaq super-intensiv texniki üzüm bağlarının hər hektarına görə 16,5 min manat, super-intensiv süfrə üzümü bağlarına görə isə 11,5 min manat subsidiya veriləcək.

Aqrar Subsidiya Şurası meyvəçilik sahəsinə də dəstəyi getdikcə artırır. Ölkə ərazisində salınmış intensiv və super-intensiv meyvə bağlarının subsidiya mexanizmi ilə əhatə olunması da bunu təsdiqləyir. Şuranın qərarına əsasən 2025-ci il sentyabrın 1-dən 2026-cı il mayın 31-dək dağ və dağətəyi ərazilərdə salınacaq fındıq bağlarının hər hektarına görə 3 min manat, nar bağlarına görə 3-3,7 min manat, zeytun bağlarına görə 5,6 min manat, şaftalı (nektarin) və ərik bağlarına görə 4-5 min manat subsidiya veriləcək.

Sözügedən dövrdə intensiv meyvə bağlarında əkilmiş limon, kinkan, narıngi və portağal bağlarının hər hektarına görə 9,6 min manatdan 11,6 min manatadək subsidiyanın verilməsi nəzərdə tutulur. Püstə, armud, alma, gilas, xurma, badam və qoz bitkiləri əkilmiş intensiv meyvə bağlarının hər hektarına görə 3 min manatdan 8 min manatadək subsidiya veriləcək. Naxçıvan Muxtar Respublikasının ərazisində salınmış intensiv meyvə bağları üçün isə daha yüksək məbləğ nəzərdə tutulub.




Super-intensiv meyvə bağları üzrə subsidiya məbləği daha yüksək olacaq. Məsələn, işğaldan azad edilmiş ərazilərdə 2025-ci il sentyabrın 1-dən 2026-cı il mayın 31-dək salınacaq şabalıd, gilas, şaftalı (nektarin), ərik, qoz və fındıq bağlarının hər hektarına görə 3 min 250 manatdan 16 min 250 manatadək əkin subsidiyası veriləcək. Naxçıvan Muxtar Respublikası üzrə isə bu məbləğ 4 min 400 manatdan 32 min manat arasında dəyişəcək. Bununla yanaşı, 2025-ci il sentyabrın 1-dən 2026-cı il mayın 31-dək damcı suvarma sistemi əsasında kivi, moruq, qarağat, böyürtkən bağları salacaq fermerlər aqrar subsidiya mexanizmindən bəhrələnəcəklər.

Növbəti əkin mövsümündə subsidiya mexanizmində bir sıra yeniliklərin tətbiqi də nəzərdə tutulur. Bu baxımdan ilk dəfə olaraq dəmyə torpaqlarının dincə qoyulması üçün subsidiyaların verilməsinə başlanılmasını misal çəkmək olar. Şuranın Qərarına əsasən Şamaxı, Şəki, Qobustan və Yardımlı rayonlarında dəmyə ərazilərində son 3 ildə ardıcıl olaraq buğda və arpa əkilmiş, eləcə də Elektron Kənd Təsərrüfatı Sistemində bəyan edilmiş torpaqların dincə qoyulması üçün hər hektara görə 220 manat subsidiya veriləcək.

Yeniliklərdən biri də sertifikatlı toxumdan istifadənin təşviqi ilə bağlıdır. Belə ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən buğda üzrə cəmi əkin sahəsi 10 hektardan və ya arpa üzrə cəmi əkin sahəsi 100 hektardan artıq olan fermerlər tərəfindən sertifikatlı toxum istifadə edilmədikdə əkin əmsalı 0-a bərabər qəbul ediləcək.

Şuranın Qərarına əsasən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"na uyğun olaraq işğaldan azad edilmiş kəndlərdə və qəsəbələrdə məskunlaşan və həmin yaşayış məntəqələrində yaşayan sakinlərə verilmiş torpaqlarda aparılan əkinlər üzrə əkin əmsalı və əkin subsidiyası bu birillik bitkilər və yonca əkinləri üzrə 50 faiz artırılmaqla tətbiq ediləcək.

Bu ildən kənd təsərrüfatı bitkiləri üzrə məhsul subsidiyasının siyahısı da genişləndirilib. Belə ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən qarğıdalı üzrə məhsul əmsalı qarğıdalıdan qarğıdalı yağı, nişasta, qlükoza və fruktoza istehsal edən müəssisələrlə yanaşı, mal-qara və quş yemi istehsal edən müəssisələr üçün təhvil verilən qarğıdalıya şamil ediləcək. Bundan əlavə, meyvə şirəsi (konsentrat və s.) istehsalı üçün emal müəssisələrinə təhvil verilən nar və alma üçün məhsul subsidiyası verilməsi barədə qərar qəbul edilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Şərq – Qərb dəhlizində qatarların hərəkəti intensivləşir

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti bu ilin 8 ayında 265 blok qatarı qəbul edib ki, bu da ötən ilin müvafiq dövrünün göstəricisindən 58 faiz çoxdur. Yanvar-iyul aylarında həmin qatarlarla 28 min 261 TEU konteyner yük daşınıb. Bu isə 2024-cü ilin eyni dövrünə nisbətən 67 faiz artım deməkdir.**



Xatırladaq ki, Çindən Azərbaycana ilk blok qatarı 2023-cü il dekabrın 30-da yola salınıb. Cəmi 11 günə mənzilbaşına çatan blok qatarı Şərq-Qərb nəqliyyat dəhlizinin əhəmiyyətini və rəqabət qabiliyyətliliyini bir daha nümayiş etdirib.

Hazırda Çindən Azərbaycana yük göndərişi ilə yanaşı, əks istiqamətdə də yükdaşımalar həyata keçirilir. Bakıdan dəmir yolu nəqliyyatı ilə Çinə ilk ixrac yükləri isə ötən il noyabrın 24-də yola salınıb. 62 ədəd 40 futluq konteynerdən ibarət Bakı – Sian ilk ixrac blok qatarı multimodal olaraq Qazaxıstan üzərindən Çinin ən böyük quru limanlarından biri olan Sian limanına çatdırılıb.

2025-ci ildə isə Çindən Azərbaycan və Avropa istiqamətində göndərilən blok qatarlarının sayının 3 dəfədən çox artırılaraq 1000-ə çatdırılması planlaşdırılır.

# "Dədə Qorqud" yenidən Xəzərə qayıtdı

**"Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) balansında olan gəmi-bərələrin qrafik əsasında təmiri davam edir. Qurum bugünlərdə "Dədə Qorqud" tankerinin təmirini başa çatdırıb. Bu barədə XQ-yə ASCO-dan məlumat verilib.**



Bildirilib ki, təmir zamanı gəminin sualtı və suüstü hissələri, maşın şöbəsindəki mexanizmləri, baş göyərtəsi təmizlənərək rənglənib. Bundan əlavə, gəmi üzrə bütün klapanlar bərpa olunub, ağac emalı, gövdə-qaynaq və elektrik-quraşdırma işləri həyata keçirilib. Tankerdə rabitə və elektroradionaviqasiya sahəsinə aid yeni avadanlıqlar quraşdırılıb, 1 dəst "MF/HF" tipli stasionar radiostansiya və siqnal paylayıcısı istifadəyə verilib. Bundan əlavə, girokompas, radar və komanda yayım qurğusunun sıradan çıxmış hissələri yeniləri ilə əvəzlənib.

Təmir işləri ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda həyata keçirilib. Sınaq yoxlamalarından sonra tanker yenidən istismara qaytarılıb.

Qeyd edək ki, uzunluğu 149,9 metr, eni isə 17,3 metr olan "Dədə Qorqud" tankerinin yükgötürmə qabiliyyəti 13,8 min ton təşkil edir.

***XQ***

# Büdcə gəlirləri xərcləri üstələyib

**2025-ci ilin yanvar-avqust aylarında Azərbaycanın dövlət büdcəsinin gəlirləri 26 milyard 359,4 milyon manat, xərcləri isə 22 milyard 308 milyon manat təşkil edib. Bu göstəricilər ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 4,5 faiz çox və 0,2 faiz azdır.**

Maliyyə Nazirliyinin məlumatına əsasən hesabat dövründə büdcə gəlirləri proqnozdan 2,7 faiz çox, büdcə xərcləri isə proqnozdan 6 faiz az icra edilib. Son nəticədə 8 ayda büdcədə 4 milyard 51,4 milyon manat profisit yaranıb ki, bu da əvvəlki ilə nisbətən 41,6 faiz çoxdur.

Yeri gəlmişkən, bu ilin 8 ayında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə daxilolmalar 11 milyard 561,1 milyon manat təşkil edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 3 faiz çoxdur. Ümumilikdə, vergi daxilolmaları proqnozdan 5,4 faiz çox icra edilib.

Cari ilin yanvar-avqust aylarında İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin xətti ilə dövlət əmlakının icarəsindən büdcəyə 30,3 milyon manat vəsait daxil olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 19,8 faiz çoxdur. İcarə daxilolmaları proqnozu 31 faiz üstələyib.

***XQ***

# Ət bazarında bahalaşma ciddi narahatlıq doğurur

## *Yerli istehsal artmır, idxal qiymətləri isə yüksəkdir*

**Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2025-ci ilin yanvar – iyul aylarında diri çəkidə 335,3 min ton ət istehsal olunub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı vur – tut 1,2 faiz çoxalıb. Bəs belə olan təqdirdə son dövrlərdə ət və ət məhsullarının davamlı şəkildə bahalaşması (hazırda mal əti bölgələrdə 17 manat, Bakıda isə 20 manatdır) nə ilə bağlı olub?**



Sualın aydınlaşdırılması məqsədilə belə bir statistikaya da diqqət yetirək: Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, hesabat dövründə ölkəmiz 55 milyon 116 min ABŞ dolları dəyərində 25 min 180 ton (ötən ilin eyni dövrü ilə müqayisədə 5 min 542 ton (18 faiz), 13 milyon 427 min dollarlıq (19,5 faiz) az ət idxal edib.

Respublikada ət istehsalı göstəricilərini idxal rəqəmləri ilə müqayisə etsək, o zaman yenə də belə bir sual yaranır: İstehsal artırsa, idxalın azalması təbii hal sayılır. Bəs o zaman belə bir şəraitdə məhsulun bahalaşma nə ilə bağlıdır? Sualı bir qədər də konkretləşdirib deyə bilərik ki, bir halda ki, ət istehsalında keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar – iyul aylarında 1,2 faiz artım qeydə alınıbsa, onda bahalaşmanın əsasında hansı amillər dayanır?

Bu məqamda qeyd edək ki, hazırda ekspertlər tərəfindən ölkədə ət idxalının azalması müxtəlif səbəblərlə əlaqələndirilir. Məsələn, bir qrup mütəxəssis idxaldakı azalmanı istehlakın aşağı düşməsi ilə bağlayır. Bildirilir ki, son 2 ildə heyvanların sayının 2 min 700 baş, xırda heyvanların sayının isə 1 milyondan çox azalmasını məhz bu məqam şərtləndirir. Başqa sözlə, ətin qiyməti yüksəldikcə, istehlak da azalır.

Azərbaycanın ət istehsalı və ixracı üçün böyük potensialı var. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində respublikamızda aqrar sahə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Dövlət başçısının tapşırığı ilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən ölkədə heyvandarlığın inkişafına dair hazırlanan Dövlət Proqramının əsas məqsədi isə ölkədə yeni təsərrüfatçılıq modellərini tətbiq etməklə heyvanların cins tərkibini yaxşılaşdırmaq, məhsuldarlığı yüksəltmək olub. Proqramın yerinə yetirilməsi nəticəsində heyvan mənşəli məhsulların istehsal həcmi artıb, yem ehtiyatları, örüş və otlaq sahələrindən daha səmərəli istifadə edilməyə başlanıb. Məhsuldarlığın artması fermerlərin gəlirlərinin çoxalması, onların rifahının yaxşılaşması ilə nəticələnib.

Ölkəmizdə kənd təsərrüfatının inkişafı üçün dövlət səmərəli layihələr həyata keçirir. Xüsusilə bu sahəyə tətbiq edilən vergi güzəştləri, hər il ayrılan subsidiyalar, hətta kənd təsərrüfatı məhsullarına dövlət sığortasının tətbiqi deməyə əsas verir ki, ölkə fermerləri hərtərəfli qayğı ilə əhatə olunub. Statistik məlumata görə, 2025-ci ilin yanvar – iyun aylarında həyata keçirilən 4 milyon 435 min manatlıq sığorta ödənişindən 4 milyon 246 min manat əkin sahələri üzrə, 189 min manat sığorta ödənişi isə heyvandarlıq təsərrüfatları üzrə reallaşdırılıb.

İşğaldan azad olunan ərazilər də heyvandarlıq üçün hər cür əlverişli şərait var və hazırda mövcud potensial hərəkətə gətirilərsə, respublikamız qonşu Türkiyəyə də ət ixrac edə bilər. Çünki qardaş ölkədə ətin qiyməti Azərbaycandan iki dəfə bahadır, bu isə ixrac üçün geniş imkanlar deməkdir.

Aqroparklarda da bu sahənin inkişafına xüsusi önəm verilir. İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, ötən il ərzində heyvandarlıq üzrə ixtisaslaşmış 6 aqroparkda 32,4 min ton süd və 1,3 min ton ət istehsal olunub. Bütövlükdə isə il ərzində aqroparklarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 150 milyon manata yüksəlib.

### Bahalaşmanın səbəbləri

Son illərdə Azərbaycanda ət və ət məhsullarının qiymətində davamlı artım müşahidə olunur. Ənənəvi olaraq, ölkə əhalisinin qida rasionunda xüsusi yer tutan ətin bahalaşması həm sosial rifah səviyyəsinə, həm də ümumi inflyasiya göstəricilərinə mənfi təsir göstərir. Bəs bu prosesin əsas səbəbləri nədir və hansı həll yolları var?

Bu sualın cavabı, ilk növbədə, yerli istehsalın məhdud imkanlarının araşdırılması ilə üzə çıxır. Belə ki, respublikada kənd təsərrüfatının mühüm sahələrindən biri maldarlıqdır. Lakin statistik rəqəmlər göstərir ki, artıq 10 ildir ki, iri malın sayında ciddi artım qeydə alınmır. Əhalinin artımı və istehlak tələbatı ilə müqayisədə yerli istehsal potensialı nisbətən zəifdir. Bu da bazarda təklifin azalmasına və qiymətlərin yüksəlməsinə səbəb olur.

Bu məsələdə yemin davamlı bahalaşması da ciddi narahatlıq doğurur. Belə ki, ətin maya dəyərinin 60 – 70 faizini heyvan yemi təşkil edir. Son illərdə həm dünyada, həm də Azərbaycanda yem məhsullarının qiymətində bahalaşma müşahidə edilir. Bu isə mal-qara saxlayan fermerlər üçün əlavə xərc yaradır. Məsələn, arpa, qarğıdalı və digər yem komponentlərinin idxaldan asılı olması onun maya dəyərini artırır və nəticədə ətin satış qiymətini bahalaşdırır.



Ət və ət məhsullarının idxaldan asılılığına gəldikdə isə qeyd edək ki, Azərbaycan onun bir hissəsini xaricdən alır. İdxal olunan məhsulların qiyməti isə dünya bazarındakı tendensiyalardan, nəqliyyat xərclərindən, valyuta məzənnəsindəki dəyişikliklərdən birbaşa asılıdır. Xüsusilə son illərdə logistika xərclərinin artması və valyuta bazarındakı dalğalanmalar bu sahədə qiymət təzyiqini daha da gücləndirir.

Sözügedən bahalaşmaya təsir göstərən amillərdən biri də inflyasiya və istehlak zənciri ilə əlaqədardır. Belə ki, ət məhsullarının bahalaşmasında ümumi inflyasiya mənfi rol oynayır. Əməkhaqqı fondu, daşınma xərcləri, enerji daşıyıcılarının qiyməti və digər zəncirvari xərclər nəticə etibarilə ərzaq bazarında özünü qabarıq büruzə verir. Belə ki, əgər 2020-ci illərdə ölkədə ümumi illik inflyasiya 2 – 3 faiz civarında idisə, 2022 – 2023-cü illərdə bu göstərici 10 faizi keçərək hazırda ət bazarında sabitliyi pozan əsas amillər sırasında yer alır.

Ət bazarında qiymətlərin artmasına təsir edən amillərdən biri də mövsümi tələbatdır. Xüsusilə Qurban bayramı və ya qış mövsümü ərəfəsində bazarda qiymətlər kəskin şəkildə yüksəlir. Təklifin məhdud, tələbin isə yüksək olduğu dövrlərdə qiymətlərin bahalaşması təbii hala çevrilir.

O da qeyd edilməlidir ki, kölgə iqtisadiyyatı və inhisarçılıq da ət bazarında bahalaşmaya təsirsiz ötüşmür. Ekspertlərin fikrincə, bazarda ətin bahalaşmasının digər bir səbəbi də inhisarçılıq və qeyri-rəsmi fəaliyyətlərdir. Bəzi iri topdan satış subyektlətin qiymətləri süni şəkildə qaldırması, şəffaf olmayan dövriyyə və kölgə iqtisadiyyatı bazar mexanizmlərinin normal fəaliyyətinə mane olur.

Əlbəttə, bu məsələdə sosial təsirlərin də mənfi rolu müşahidə edilir. Buna görə də ətin bahalaşması yalnız iqtisadi deyil, həm də sosial problemdir. Əgər orta aylıq əməkhaqqı ilə müqayisədə ətin qiyməti sürətlə artırsa, bu, əhalinin alıcılıq qabiliyyətini zəiflədir. Nəticədə, ailələrin gündəlik qida rasionunda ətin payı azalır, bu isə uzunmüddətli perspektivdə sağlamlıq göstəricilərinə də mənfi təsir göstərir.

### Bəs çıxış yolları nədədir?

Birincisi, yerli istehsalın artırılması – fermerlərə güzəştli kreditlər, subsidiya və texniki dəstəyin genişləndirilməsi;

İkincisi, yem bazasında diversifikasiya – yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması;

Üçüncüsü, logistika və idxal siyasəti – gömrük rüsumlarının optimallaşdırılması, yeni tədarük marşrutlarının yaradılması;

Dördüncüsü, şəffaf bazar mexanizmləri – inhisarçılığa qarşı mübarizə, qiymətlərin süni artırılmasının qarşısının alınması;

Nəhayət, ətin bahalaşmasının qarşısının alınmasında əsas vasitə iqtisadi sabitlik və inflyasiya ilə mübarizədir. Bu sahədə dövlətin makroiqtisadi siyasəti çərçivəsində qiymətlərin balanslaşdırılması xüsusi yer tutur.

Beləliklə, göründüyü kimi, Azərbaycanda ət və ət məhsullarının bahalaşması kompleks amillərin təsiri altında baş verir. Burada həm qlobal bazardakı dəyişikliklər, həm də daxili istehsal və idarəetmə mexanizmlərində çatışmazlıqlar ciddi rol oynayır. Problemin həlli isə yalnız istehsal potensialının gücləndirilməsi və bazar şəffaflığının artırılması ilə mümkündür.

### Ət bazarı rəqəmlərin dili ilə

Vurğulandığı kimi, ətin bahalaşması həm istehlakçıların gündəlik xərclərinə, həm də ölkənin inflyasiya göstəricilərinə ciddi təsir edir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin ilk yarısında ət və ət məhsullarının qiyməti əvvəlki ilin eyni dövrü ilə müqayisədə təxminən 15 – 18 faiz bahalaşıb. Bu artım ümumi ərzaq inflyasiyasını 12 faizdən yuxarı səviyyədə saxlayan əsas amillər sırasında qərarlaşıb.



Rəsmi statistikaya əsasən 2023-cü ildə Azərbaycanda iri malın sayı 2,7 milyon baş, xırda malın sayı isə 8,5 milyon baş olub. 2015-ci ildə isə bu rəqəmlər müvafiq olaraq 2,6 milyon və 8,2 milyon səviyyəsində qeydə alınıb. Yəni son 8 ildə ciddi artım müşahidə edilməyib. Halbuki ölkə əhalisinin sayı bu müddətdə 1 milyon nəfərdən çox yüksəlib.

Əhalinin adambaşına illik ət istehlakı isə orta hesabla 32 – 35 kiloqram təşkil edir. Bu göstərici dünya üzrə orta istehlak (44 kiloqram) və Avropa İttifaqının göstəricilərindən (65 kiloqram) xeyli aşağıdır.

Təbii ki, yem bazarında bahalaşma da ətin qiymətinə təsirsiz ötüşmür. Belə ki, ətin maya dəyərinin əsas hissəsini heyvan yemi təşkil edir. Azərbaycanın yem istehsalında özünü təminetmə səviyyəsi isə cəmi 45 – 50 faiz civarındadır. Yəni arpa, qarğıdalı və soya məhsullarının əhəmiyyətli hissəsi idxaldan asılıdır.

Beynəlxalq Qida Təşkilatının məlumatına görə, 2021 – 2023-cü illərdə dünyada qarğıdalının qiymətləri 40 faizdən çox artıb. Azərbaycanda isə 2024-cü ildə yem qarğıdalısının qiyməti 1 ton üçün orta hesabla 420 – 450 manat təşkil edib ki, bu da 2020-ci illə müqayisədə təxminən, 70 faiz yüksəlib. Bu artım birbaşa ət bazarına öz mənfi təsirini göstərir.

Azərbaycanın ət idxalı indiyədək əsasən Braziliya, Ukrayna və Rusiya bazarlarından təmin olunub. 2023-cü ildə ölkəyə 25 min ton mal əti idxal edilib. Dünya bazarında qiymət dəyişiklikləri və nəqliyyat xərclərinin artması isə ölkədaxili qiymətləri bahalaşdırıb. Məsələn, 2022-ci ildən sonra Qara dəniz bölgəsində logistikanın çətinləşməsi nəticəsində Braziliya və digər uzaq ölkələrdən gətirilən məhsulların daşınma xərcləri ən azı 2 dəfə çoxalıb. Bu da idxal olunan məhsulun qiymətini yüksəldib.

Əlbəttə, inflyasiya amili də vəziyyəti bir qədər ağırlaşdırıb. Məsələn, Azərbaycan Mərkəzi Bankının açıqlamasına görə, 2024-cü ilin ilk yarısında ərzaq inflyasiyası, ümumilikdə, 12,4 faiz təşkil edib. Ət məhsulları isə bu göstəricini aşaraq ən yüksək bahalaşma tempini şərtləndirib.

Bu fikri müqayisə əsasında bir qədər də konkretləşdirib qeyd edə bilərik ki, Türkiyədə 2024-cü ilin ilk yarısında ət məhsullarının qiyməti illik müqayisədə 50 faizdən çox artıb. Gürcüstanda bu göstərici 18 faiz, Qazaxıstanda isə 14 faiz təşkil edib. Beləliklə, Azərbaycan regional baxımdan orta səviyyəli bahalaşma tempinə malikdir, lakin alıcılıq qabiliyyətinə görə qiymət artımı əhali üçün daha həssas görünür.

Qeyd edək ki, ölkədə ət məhsulları istehsalını yüksəltmək üçün damazlıq və genetik inkişaf məsələsi də diqqətdə saxlanılmalıdır. Bunun üçün respublikaya yüksək məhsuldar damazlıq cinslərinin gətirilməsi və yerli fermerlərə güzəştli şərtlərlə verilməsi gerçəkləşdirilməlidir. Süni mayalanma mərkəzləri genişləndirilməlidir. Yerli cinslərin məhsuldarlığının artırılması məqsədilə seleksiya proqramları təşkil olunmalıdır.

Kiçik və orta emal müəssisələrinin dəstəklənməsi sayəsində emal sənayesi də genişləndirilməlidir. Eyni zamanda kənd təsərrüfatı kooperativlərinin qurulması diqqətdə saxlanılmalı, kiçik fermerlərin birləşib bazara çıxış imkanları artırılmalıdır. Daxili bazarda "Made in Azerbaijan" ət məhsullarına üstünlük verilməsi üçün təşviq kampaniyaları da genişləndirilməlidir.

Bundan başqa, infrastruktur və logistika sistemi müasirləşdirilməli və bu sahənin inkişafına mühüm önəm verilməlidir. Məhsulun saxlanması ilə bağlı problemin həlli məqsədilə soyuducu anbar və logistik mərkəzlərin bölgələrdə yaradılmasına da ən mühüm amil kimi yanaşılmalıdır.

Nəqliyyat və bazara çıxış xərclərinin azaldılması istiqamətində layihələr həyata keçirilməlidir. Eyni zamanda ixrac imkanlarının genişləndirilməsi üçün halal sertifikatlaşdırmaya və beynəlxalq standartların tətbiqinə üstünlük verilməlidir. Ən yaxın bazarlara (əsasən Körfəz ölkələri, Orta Asiya, qonşu dövlətlər) ixracın təşviqi genişləndirilməlidir. Təbii ki, qanunvericilik və nəzarət prinsipi də diqqətdə saxlanılmalı, qanunsuz kəsimlərin qarşısını almaq üçün nəzarət daha da gücləndirilməlidir.

Yeri gəlmişkən, veterinar xidmətlərin modernləşdirilməsi və fermerlər üçün əlçatan edilməsi zəruridir. Bir sözlə, istehsalı artırmaq üçün fermerlərin maliyyələşdirilməsi, üstəgəl yem bazasının gücləndirilməsi, damazlıq heyvanların yetişdirilməsi, emal və ixrac imkanlarının genişləndirilməsi bir – birini tamamlamalıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

**Ekspert rəyi**



**Akif NƏSİRLİ,**
**Liberal İqtisadçılar Birliyinin sədri**

Ölkədə daxili tələbatın, təxminən, yarısı idxal hesabına ödənilir. Buna görə də idxalın azalması yerli bazarda ət qiymətlərinin artmasına səbəb ola bilər. Çünki idxal hazırda yerli istehsalın qarşılamadığı tələbi kompensasiya edir. Əgər qısa müddətdə idxala çıxış məhdudlaşarsa, yəni istər logistika, istərsə də tariflərlə bağlı səbəblər yaranarsa, bu, bazarda təklifin azalmasını və qiymət artımını şərtləndirər. Belə olan halda isə idxalın azalmasını yerli istehsalın artması ilə əlaqələndirmək düz deyil.

Bu tendensiyanın ilk əlamətləri artıq 2025-ci ilin əvvəlindən müşahidə olunmağa başlayıb. Həm miqdar, həm də dəyər baxımından idxalda azalma gedir, bunun fonunda isə ətin bahalaşması baş verir. Yəni idxalın azalması yaxın perspektivdə qiymətlərə təzyiq göstərə bilər.

Uzunmüddətli həll yolu kimi yerli ət istehsalının gücləndirilməsi, idxal mənbələrinin şaxələndirilməsi (məsələn, Gürcüstan, Türkiyə və İran kimi qonşu ölkələrdən daha çox tədarük) və logistika sisteminin dayanıqlığının artırılması zəruri hesab olunur.

Ət idxalının strukturuna nəzər saldıqda, 2023-cü ildə idxal olunan ət və ət məhsulları arasında quş əti və onun qalıqları ümumi idxalın 53 faizini (təxminən, 46 milyon dollar), dondurulmuş mal əti isə 32 faizini (təxminən, 28 milyon dollar) təşkil edib. Digər məhsullar – donuz, qoyun və keçi əti, digər yağlar və s. isə cüzi paya malik olub.

Dondurulmuş mal əti üzrə 2023-cü ildə idxalın dəyəri 28 milyon dollar olub və bu kateqoriyada ən böyük tədarük Ukraynanın payına düşüb (64 faiz). Daha sonra isə bu sırada Hindistan (17,6 faiz), Braziliya (11,2 faiz), Belarus və Rusiya kimi ölkələr gəlir.

Ümumilikdə, 2023-cü ildə ət idxalının əsas mənbə ölkələri arasında Ukrayna 35 milyon dollarla (41 faiz) birinci yerdədir. Sonrakı sıralarda Rusiya (18,3 faiz və ya 15,8 milyon dollar), Braziliya (8,8 faiz və ya 7,63 milyon dollar), Gürcüstan (8,67 faiz və ya 7,52 milyon dollar), Belarus (8,59 faiz və ya 7,45 milyon dollar) və Hindistan (5,72 faiz və ya 4,96 milyon dollar) yer alır.

Azərbaycanda ət məhsulları istehsalını stimullaşdırmaq üçün həm dövlət siyasəti, həm də bazar mexanizmləri əsas rol oynaya bilər. Mövcud vəziyyətdə əsas problemlər yem bazasının zəifliyi, məhsuldarlığın aşağı olması, yüksək idxal asılılığı və kiçik fermer təsərrüfatlarının zəif maliyyələşdirilməsidir. Bunları nəzərə alaraq, stimullaşdırma yollarını aşağıdakı kimi diqqətə çatdırmaq istərdim:

– maliyyə və subsidiya dəstəyinin göstərilməsi;

– fermerlərə yem, texnika və damazlıq heyvan alışı üçün güzəştli kreditlərin verilməsi;

– subsidiyaların differensial ayrılması – məhsuldarlığı yüksək olan və keyfiyyətli ət istehsal edən təsərrüfatlara daha çox dəstəyin verilməsi;

– heyvan xəstəlikləri və itkiləri zamanı fermerin riskini azaltmaq üçün aqrar sığorta mexanizmlərinin genişləndirilməsi zəruri məsələlər kimi diqqətdə saxlanılmalıdır.

Bütün bunlarla bərabər, respublikada ət məhsulları istehsalını stimullaşdırmaq üçün yem bazasının gücləndirilməsinə, otlaq sahələrinin bərpası və düzgün idarə olunmasına əsas şərtlərdən biri kimi yanaşılmalı, yem istehsalının stimullaşdırılması (qarğıdalı, arpa, yonca və s.) kimi vacib məsələlərə xüsusi əhəmiyyət verilməlidir. Eyni zamanda, daxili istehsalın artırılmasına dəstək məqsədilə yem idxalına tətbiq edilən rüsumlar azaldılmalıdır.

# “Akademik Yusif Məmmədəliyev – 120”

## *Elektron məlumat bazası alimin ömür yoluna işıq salır*

**Bu il dünyaşöhrətli kimyaçı-alim, Dövlət mükafatı laureatı, kimya elmləri doktoru, akademik Yusif Məmmədəliyevin 120 illik yubileyi qeyd edilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu əlamətdar tarix münasibətilə iyulun 5-də Sərəncam imzalayıb. Sərəncama əsasən Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası alimin həyat və fəaliyyətini əks etdirən xüsusi elektron məlumat bazası hazırlayaraq oxucuların istifadəsinə verib.**




Elektron bazada Yusif Məmmədəliyevin həyatı, tanınmış şəxslərin onun haqqında fikirləri, layiq görüldüyü mükafatlar, eləcə də “Dünya elminə töhfələr verən alim”, “Elm fədaisi, müəllim, ziyalı, milli fəxrimiz” kimi məqalələrin tam mətni təqdim olunur. Bazaya akademik Yusif Məmmədəliyevin yazdığı, redaktə etdiyi Azərbaycan və rus dillərində kitabların, məqalələrin siyahıları, həmçinin onun haqqında nəşr olunan kitablar və dövri mətbuat materialları daxil edilib. Elektron bazada “Filmoqrafiya”, “Bədii ədəbiyyatda”, “Xatirəsinin əbədiləşdirilməsi”, “Virtual sərgi”, “Foto və videoqalereya” kimi müxtəlif bölmələr də mövcuddur. Alimin Azərbaycan Milli Elmlər Akademiyasına rəhbərlik etdiyi dövrdə yaradılan institutlar və ictimai-siyasi fəaliyyəti barədə ətraflı məlumatlar da bazaya əlavə olunub.

“Akademik Yusif Məmmədəliyev – 120” adlı bu elektron məlumat bazası kitabxananın rəsmi saytında yerləşdirilib.

***Arzu ƏLİYEVA***
***XQ***

# “Elm və həyat” yeni sayında nədən yazır?

**AMEA-nın “Elm və həyat” elmi-populyar jurnalının növbəti sayı çapdan çıxıb. Jurnal AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin “Böyük sənətə yüksək qiymət” məqaləsi ilə açılır.**

Alim Azərbaycan Prezidenti İlham Əliyevin “Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı bəzi tədbirlər haqqında” 22 may 2025-ci il tarixli sərəncamının milli mədəniyyətimizin tarixi nümunələrinin yaşadılmasına, memarlıq abidələrimizin qorunub saxlanılmasına, bərpasına göstərilən qayğının əyani ifadəsi olduğunu qeyd edir. Akademik bildirir ki, Atabəylər türbəsi adlandırılan ölməz memarlıq əsəri – möhtəşəm Möminə xatun məqbərəsi Azərbaycan dövlətçiliyi tarixində Nizami dövrü intibahı kimi tanınan mədəni yüksəlişin qiymətli yadigarıdır. Buna görə də elmi-mədəni önəm daşıyır.




AMEA-nın vitse-prezidenti, ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova və həmin institutun laboratoriya müdiri, biologiya üzrə fəlsəfə doktoru Nurməmməd Mustafayevin “Qədim insanların genləri: insanın təkamülü və formalaşmasının şahidləri”, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin “Naxçıvan Muxtar Respublikası 1941–1945-ci illər müharibəsi dövründə”, AMEA Rəyasət Heyətinin elmi katibi Coşqun Məmmədovun “Terrorsuz Türkiyə: Bir millətin cəsarətlə yazdığı yeni tarix”, AMEA Rəyasət Heyəti aparatının şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Əsmər Əliyevanın “AMEA-nın müasir inkişaf prioritetləri” mövzularında yazıları elmi məzmunu ilə yanaşı, populyar maraq da kəsb edir.

Yeni sayda alimlərdən Məmməd Sadıqovun “Elm dünyasının zirvəsində”, Nigar Gözəlovanın “Ofelya xanım Bağırbəyovanın xatirələri: İrəvan xan ailəsinin tarixi və mədəni irsi”, Rizvan Qarabağlının “Qarabağlı memar İbrahimxəlil”, Arzu Hacıyevanın “Böyük mütəfəkkir, görkəmli dövlət xadimi” sərlövhəli məqalələri də yer alıb. Sevil Adıgözəlovanın “Əlibəy Hüseynzadənin yaradıcılığında antroponimlərin təhlili”, Esmira Cavadovanın “Ziya işığına yığışan sönməzlər”, Əli Qəhrəmanovun “Bəxtiyar Vahabzadə dramaturgiyası Naxçıvan teatrında”, Aqil Əhmədovun “Azərbaycan şərqşünaslığının görkəmli nümayəndəsi: Həsən Mahmudov – 100” adlı məqalə və oçerkləri də oxunaqlı yazılardır.

Oxucular bu sayda Hamlet Allahverdiyevin “Nizami Gəncəvinin “Xəmsə”sində təbiəti mühafizə”, Bəxtiyar Tuncayın “Qriqori Hamama və onun “Alban dilinin qrammatikası”, Fəridə Quliyevanın “Hüseyn Cavid obrazı tablolarda”, Əzizağa Ələkbərlinin “Azərbaycan–Qırğızıstan teatr əlaqələri”, Fəridə Mir Bağırzadənin “Çətən xalçaları” sərlövhəli məqalələri, “Meridian” və “Sağlamlıq” bölmələrində yer alan yazılarla tanış ola bilərlər.

***Ə.ƏLİYEV***
***XQ***

# Muzeylər evimizə gəlir

## *Süni intellekt bizi hər an tarixin yadigarlarına qovuşdurur*



**Muzeyin qapısından içəri keçəndə sanki başqa bir dünyaya düşürsən. Orada zaman dayanır, nəfəsin belə keçmişin pıçıltılarına qarışır. Sakit zalda addımların səsi yavaşladıqca ürəyinin dərinliklərində qəribə bir duyğu oyanır – həsrət və heyranlıq.**

Şüşə vitrinlərdə sərgilənən danışmağa hazır, lakin susmuş hər bir əşyada hələ neçə oxunmamış hekayə var. Solğun məktublara məhəbbətin nəfəsi hopub, sınıq qablarda unudulmuş yeməklərin dadı qalıb, paslı qılınc min illərin mübarizəsindən xəbər verir. Bu əşyalardan istifadə edilmir, onlar tarixdən gələn uzaq səsə çevrilir.

Muzeyin havası qəribədir, bir az köhnə kitab qoxusu, bir az da keçmişin tozu hiss olunur və bu aləmdə gözlərini qapadanda özünü əsrlər əvvəl yaşamış babaların yanında təsəvvür edirsən. Sanki sən də onlarla eyni küçədə gəzərək ulduzlara baxmısan.

Hər zalda ayaq saxlayanda isə qulağına bir səs pıçıldayır: – Görürsənmi, zaman heç vaxt dayanmayıb. Nəsillər dəyişib, amma xatirələr yaşayır. Muzeyin ən böyük sehrini də elə buradan anlayırıq: keçmişi unutdurmur, ona həyat verir. Orada tarix nağıl kimi gözlərimizin önündə canlanır. Və muzeydən çıxanda içimizi qəribə bir istilik bürüyür, sanki əllərimizə əsrlərin ətri hopur, gözlərimizə qədim zamanların işığı düşür.

Muzeylər tariximizin nəfəsini, yaddaşımızın izlərini qoruyan ən qiymətli məkanlardır. Yolumuz buradan düşəndə zamanın uzun dəhlizindən addımlayaraq min illər əvvələ qayıdırıq. Hər paltar, qılınc, musiqi aləti bir şəxsin yaşamından xəbər verir. Hansısa padşahın libasını görəndə onun necə bir vüqarlı duruşa sahib olduğunu düşünürük. Atının üstündəki örpəyə baxanda sanki o süvarinin kölgəsi gözlərimizin önündən keçir. Muzey bu anlarda ruhu olan məbədə çevrilir.

Müasir dövrdə texnologiya bizə möcüzələr, virtual reallıqlar (VR) bəxş edib. Artıq muzeylərə getmək üçün uzun yollar qət etməyə, saatlarla zal-zal gəzməyə ehtiyac yoxdur. Virtual reallıq eynəklərini taxmaq kifayətdir ki, bir anın içində dünyanın istənilən muzeyində rahat gəzə bilirsən. Bu eynəklər insana elə bir təəssürat bağışlayır ki, sanki həqiqətən həmin məkandasan, addımlarını atır, divarlara baxır, bir sarayda dolaşırsan. Bununla da muzeylərin sehrinə daha biri əlavə olunur, biz həm də texnologiyanın yaratdığı gerçəklikdə hisslərimizi dərinləşdiririk.

Süni intellektin köməyi ilə eksponatlar barəsində səsli məlumat ala, istədiyimiz qədər yaxınlaşa bilir, hər detalı daha dərindən öyrənirik. Virtual muzeylərin sehri isə budur: onlar sadəcə eksponatları göstərmir, həm də keçmişin nəfəsini evlərimizə gətirir.

İndi isə əsas mövzumuza qayıdaq: Azərbaycan muzeyləri artıq bir neçə ildir ki, virtual reallıq və 360° texnologiyalar vasitəsilə hər bir ünvana ayaq açıb. Heydər Əliyev Mərkəzinin “Azərbaycanın xəzinələri” adlı 3D turu, İçərişəhərin “#icherisheher360” layihəsi, Azərbaycan Milli Xalça Muzeyinin onlayn ekskursiyaları bu sahədə öncül addımlardır. Məhz bu platformalar sayəsində insan evindən çıxmadan tarixin qapısını aralaya, abidələrin, incəsənət nümunələrinin arasında dolaşa bilir. Virtual turlar təkcə görüntü ilə məhdudlaşmır. Süni intellekt sayəsində muzeylər daha interaktiv olur. Bir eksponatın qarşısında dayananda, AI o barədə ətraflı məlumat verir, əlavə faktlarla izah edir. Hətta eyni eksponat haqqında müxtəlif auditoriyalar üçün fərqli dildə və üslubda danışır: uşaq üçün nağıl, alim üçün faktlarla zəngin elmi izah.

Beləcə, muzeylər hər bir ziyarətçinin marağına uyğun “şəxsi bələdçi”yə çevrilir. Buranı gəzəndə isə onların havası, sükutu, eksponatların kölgəsi ilə yanaşı, qəlbə toxunan bir məqam da arxa fonda səslənən musiqilər olur. Eynəyi taxıb səyahətə başlayanda saysız-hesabsız eksponatlarla qarşılaşır, hər dəfə bir düyməyə basanda isə sanki zamanın qapısını döyürsən. Düyməni “klik”lədiyin an görünməz bir əl səni həmin eksponatın qarşısına aparır və yenə bir “klik”… Ekranda həmin eksponat haqqında bütün məlumatlar ortaya çıxır – istədiyin dildə, istədiyin qədər geniş. Əvvəllər yalnız bələdçilərin söylədiyi hekayələr indi süni intellektin səsi ilə daha rəngarəng, daha əlçatan olur.

Arxa planda səslənən musiqi də hər bir eksponata öz ruhunu bəxş edir. Tarixi bir xalçanın qarşısında milli musiqinin sədaları eşidilir, qədim bir kitabda isə instrumental alətlərin səsi dilə gəlməyən sözləri tamamlayır. Bəlkə də bu səbəbdən virtual muzeylər gələcəklə keçmiş arasında ən möhkəm körpüdür.

Virtual muzeylər həm də müəllimlərin işini asanlaşdırır, təhsil işçiləri şagirdlərə muzeyləri rahatlıqla gəzdirə bilirlər. Şirvan şəhər 3 saylı məktəbin ibtidai sinif müəllimi Səidə Nəsirova deyir ki, paytaxtdakı muzeyləri gəzmək arzusu şagirdlərim üçün uzaq görünürdü. Amma mən Şirvan məktəbinin imkanlarına güvənərək 3-cü sinif şagirdlərinin bu arzusunu virtual muzey səyahəti ilə gerçəkləşdirdim. Texnologiya vasitəsilə uşaqlar sanki Bakının böyük muzeylərinin qapısından içəri girdilər. Onların balaca barmaqları “klik” etdikcə ekranda yeni zal açıldı, hər eksponat gözlərinin önündə canlandı.

Ən maraqlısı isə o idi ki, bu kiçik sinif otağına sığan ekran böyük bir dünyaya çevrildi. Onların baxışlarında sevinc, gözlərində həyəcan vardı. Hər eksponata baxanda elə təsirlənirdilər ki, sanki həqiqətən də muzeydə gəzirlər. Bir anlıq uşaq təxəyyülü texnologiyanın verdiyi görüntü ilə birləşir, tarixlə canlı təmasa çevrilirdi. Onlar həm texnologiya ilə tanış oldular, həm də heç vaxt getmədikləri muzeyləri “gəzdilər”.

Əslində həyatda hər zaman fürsətlər ələ düşmür. Bəzən imkanlarımız məhdud olur, arzuladığımız yerlərə gedə bilmirik. Amma əsas odur ki, həvəsdən düşməyək, müxtəlif yollar axtaraq, seçim variantları taparaq məqsədimizə yaxınlaşmağı bacaraq.

***Ləman TƏHMƏZ***
***XQ***

# “Dəli Domrul” Təbriz səhnəsində



**Təbrizin Naci Teatrında “Dədə Qorqud” dastanının motivləri əsasında hazırlanmış “Dəli Domrul” tamaşasında insanın ölüm, ölməzlik, məhəbbət və tale-qismət ilə bağlı tarixi düşüncələri çağdaş anlamda gündəmə gətirilib.**

Tamaşanın müəllifi Şahin Muradi, quruluşçu rejissoru Salar Quluzadə, prodüseri Əşkan Əziz Məhəmmədi, xoreoqrafı isə Sina Rəsulidir. Şahin Murad yeni tamaşa barədə deyib: “Dəli Domrul əfsanəsi ölüm qorxusu, həqiqi sevgi, Tanrının insanların həyatında və ölümündə rolu kimi fəlsəfi mətləblərdən bəhs edir, eyni zamanda bu dastan Azərbaycan xalqının inanc və mədəniyyətinin əksidir”.

Məşqlər ötən ilin noyabrından başlanıb və nəhayət, baxımlı, düşündürücü tamaşa ərsəyə gətirilib. Obrazları aktyorlar Məhəmmədrza Əbbasi (Domrul), Kiyarəş Kərimi (Əzrayıl), Şəqayiq Nəsiri (Domrulun həyat yoldaşı), Mitra Şaddamən (Domrulun anası), Sina Rəsuli (Gənc oğlan), Soheyl Əfsayi (Domrulun atası), Şükufə Əsədi, Diyana Pəhləvan canlandırırlar.

“Dəli Domrulun ilk tamaşası bu həftənin sonunda təbrizli sənətsevərlərə təqdim ediləcək.

***XQ***

# Uşaqlar ailələrinə qovuşdurulur

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin reinteqrasiya tədbirləri nəticəsində bu il daha 110 uşaq müəssisələrdən ailələrinə təhvil verilib.**

Agentlikdən XQ-yə bildirilib ki, ailələrinə qaytarılan uşaqların yenidən həmin müəssisələrə düşməsinin qarşısının alınması məqsədilə həssas kateqoriyadan olanlar, onların ailələri ilə bağlı sosial-psixoloji dəstək və maarifləndirmə işlərinə başlanılıb. Həyata keçirilən tədbirlər nəticəsində bu il 174 uşağın ailələri tərəfindən müəssisələrə verilməsinin qarşısı alınıb.

***Ləman TƏHMƏZ***
***XQ***



# Sumqayıtda "dustaq" quşlar xilas edilib

**Dünən IDEA İctimai Birliyinin təşəbbüsü ilə Daxili İşlər, Ekologiya və Təbii Sərvətlər nazirlikləri nümayəndələri Sumqayıtın Nəsimi mədəniyyət və istirahət parkında fəaliyyət göstərən "Turan" restoranında təcili araşdırma tədbirləri həyata keçiriblər.**

Monitorinq zamanı ərazidə qanunsuz olaraq 2 dəvəquşu və 13 yaxalıqlı tutuquşunun saxlanıldığı aşkarlanıb. Həmin heyvanlar Bakı Zooloji Parkının baytar mütəxəssisləri tərəfindən ərazidən götürülüb. Hal-hazırda klinik şəraitdə müayinə və reabilitasiya işləri aparılır.

Qeyd edək ki, əvvəllər Bakı şəhərinin parklarında və yaşıllıqlar mövcud olan digər ərazilərdə çoxsaylı tutuquşu məskunlaşmışdır. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalmışdır.

Bir neçə il əvvəl şəhər mühitinə aid olan heyvan növlərinin mühafizəsi istiqamətində aparılan layihələrin tərkib hissəsi olaraq Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə "Urban Ecology" ("Şəhər ekologiyası") layihəsi çərçivəsində Bakı şəhərində təbiətə yaxalıqlı tutuquşular buraxılıb. Sumqayıt şəhərində



xilas edilən 13 tutuquşunun da eyni qayda ilə tezliklə təbiətə reintroduksiyası nəzərdə tutulur.

Sevindirici haldır ki, son illər ölkədə




aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, həmçinin IDEA İctimai Birliyinin töhfələri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi halları azalıb və saysız-hesabsız yeni ağaclar əkilib. Bu da şəhərimizdə bir çox fauna növlərinin reintroduksiyası üçün münbit şərait yaradır.

IDEA İctimai Birliyi vətəndaşları təbiəti qorumağa bir daha çağırır və vəhşi heyvanların qanunsuz olaraq saxlanması hallarına yol verilməməsini, bu kimi hallarla rastlaşdıqda IDEA İctimai Birliyinin



1113 "Təbiətə Təcili Yardım" qaynar xəttinə və ya rəsmi sosial media kanallarına məlumat vermələrini xahiş edir.

***XQ***

# "Nadir Quliyev adına Bakı-Taxıl" ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| Bölmələrin və maddələrin adları | Hesabat dövrü üzrə 2024-cü il | Əvvəlki dövr üzrə 2023-cü il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Torpaq, tikili və avadanlıqlar | 3219138 | 2614514 |
| Uzunmüddətli debitor borcları | 1014215 | 1014215 |
| Sair uzunmüddətli aktivlər | 353 | 353 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **4233706** | **3629082** |
| Ehtiyatlar | 10932441 | 10961844 |
| Qısamüddətli debitor borcları | 1545651 | 1460948 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 111110 | 139112 |
| Sair qısamüddətli maliyyə aktivləri | | 410392 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **12589202** | **12972296** |
| **CƏMİ AKTİVLƏR** | **16822908** | **16601378** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 7827380 | 7827380 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 1056748 | 1296259 |
| **CƏMİ KAPİTAL** | **8884128** | **9123639** |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 6921560 | 6576912 |
| Qısamüddətli kreditor borcları | 1017220 | 490269 |
| Sair qısamüddətli öhdəliklər | | 410558 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **7938780** | **7477739** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **7938780** | **7477739** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **16822908** | **16601378** |

**Mənfəət, zərər və digər məcmu gəlirlər haqqında hesabat**

| Göstəricilərin adları | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə 2024-cü il | Əvvəlki dövr üzrə 2023-cü il | |
|---|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | | 9416014 | 12191151 | |
| 70 | Satışın maya dəyəri üzrə xərclər | | 9044731 | 11803505 |
| Ümumi mənfəət (zərər) | 371283 | 387646 | | |
| İnzibati xərclər | 150950 | 138368 | | |
| Əməliyyat mənfəəti (zərəri) | 7492 | (149400) | | |
| Maliyyə mənfəəti (zərəri) | | 304925 | | |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 227825 | 404803 | | |
| Mənfəət vergisi | 45565 | 80960 | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 182260 | 323843 | | |

**Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında məlumat**

| | Hesabat dövrü üzrə 2024-cü il | Əvvəlki dövr üzrə 2023-cü il |
|---|---|---|
| Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı artımlar (azalmalar) | 15755 | 248099 |
| İstifadə edilmiş material ehtiyatları | 7292548 | 9444806 |
| İşçi heyəti üzrə xərclər | 693218 | 663517 |
| Digər əməliyyat xərcləri | 1194160 | 1585451 |
| Cəmi əməliyyat xərcləri | 9195681 | 11941873 |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | Hesabat dövrü üzrə 2024-cü il | Əvvəlki dövr üzrə 2023-cü il |
|---|---|---|
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 182260 | 323843 |
| Mənfəət vergisi üzrə xərclər | 45565 | 80960 |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | ***227825*** | ***404803*** |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | |
| Ehtiyatların azalması (artması) | 29403 | 1242317 |
| əməliyyat debitor borclarının azalması (artması) | -84703 | 187100 |
| Sair qısamüddətli aktivlərin azalması (artması) | 410392 | 248099 |
| vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | | -661 |
| əməliyyat kreditor borclarının artması (azalması) | 116393 | 44758 |
| Sair qısamüddətli öhdəliklərin artması (azalması) | | -248099 |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | -45565 | -80960 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | ***425920*** | ***1392554*** |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | -604624 | -746965 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | ***-604624*** | ***-746965*** |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | -535225 |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | -421771 | -142290 |
| Maliyyələşdirmə üzrə fəaliyyətlərlə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | 344648 | -313898 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-77123** | **-991413** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **-28002** | **58979** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | **139112** | **80133** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | -28002 | 58979 |
| bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı | 111110 | 139112 |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| Uçot siyasəti və izahlı qeydlərin №-si | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi | |
|---|---|---|---|---|
| | | Digər ehtiyatlar | | |
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | **7827380** | **535225** | **1114706** | **9477311** |
| Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq | **7827380** | **535225** | **1114706** | **9477311** |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | 323843 | 323843 |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | -142290 | - 142290 |
| Kapitalın maddələri arasında köçürmələr | | **-535225** | | **-535225** |
| Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi | | **-535225** | **181553** | **-353672** |
| Əvvəlki hesabat dövrünün sonuna qalıq | **7827380** | | **1296259** | **9123639** |
| Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq | **7827380** | | **1296259** | **9123639** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 182260 | 182260 | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | -421771 | -421771 | | |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **-239511** | **-239511** | | |
| Hesabat dövrünün sonuna qalıq | **7827380** | **1056748** | **8884128** | |

**"Nadir Quliyev adına Bakı-Taxıl" ASC-nin rəhbərliyinə və Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə Müstəqil Auditorun Hesabatı**

**Rəy**

Biz, **"Nadir Quliyev adına Bakı-Taxıl" ASC - nin** 31 dekabr 2024-cü il tarixinə təqdim edilən ilkin maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə ilkin mənfəət və ya zərər və digər ümumi gəlirlər, ilkin kapitalda dəyişikliklər və ilkin pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan ilkin maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, hazırkı ilkin maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq düzgün əks etdirir.

**Rəyin bildirilməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin "İlkin maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Cəmiyyətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

**İzahedici paraqraf**

Rəyimizdə şərt bildirmədən biz diqqəti MHBS-ə uyğun yekun maliyyə hesabatlarına çevrilənə qədər ilkin maliyyə hesabatlarında düzəlişlərin aparıla bilməsinin səbəblərini izah edən ilkin maliyyə hesabatlarına dair 3-cü Qeydə cəlb edirik. Bundan əlavə, diqqətinizi bu fakta cəlb edirik ki, MHBS-ə uyğun olaraq, yalnız müqayisəli maliyyə məlumatı və izahlı qeydlər daxil olmaqla ilkin maliyyə hesabatlarının tam toplusu Cəmiyyətin maliyyə vəziyyətinin, əməliyyatlarının nəticələrinin və pul vəsaitlərinin hərəkətinin MHBS əsasında düzgün əks etdirilməsini təmin edə bilər.

**İlkin maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Standartlarına Rəhbərlik hazırkı ilkin maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan ilkin maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

İlkin maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Cəmiyyətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin ilkin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**İlkin maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq ilkin maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.

 Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.

 Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.

 Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk.

Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti ilkin maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

İlkin maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və ilkin maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

**"M ənd J Konsaltinq" MMC-nin direktoru Cəfərov Elçin Əhməd oğlu**
**Bakı, Azərbaycan Respublikası**
**24 aprel 2025-ci il**

*Xuntaçıların məhkəməsi*

# Ermənistanın hərbi cinayətləri təsdiqlənir



**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 2-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında məhkəmədə zərərçəkmişlərin hüquqi varislərinin və zərərçəkmiş şəxslərin ifadələri dinlənilib. Şəhid Ayaz Nəzərovun anası Sima Tanrıverdiyeva bildirib ki, oğlu düşmənin təxribatı nəticəsində Kəlbəcərdə həlak olub. Şəhid Qərib Qasımovun atası Şahbaz Qasımov oğlunun Xocavənddə, şəhid Məhəmmədəli Cəfərov isə oğlunun həlak olduğunu deyib.



Mirzə Ağayev bildirib ki, düşmənin açdığı atəş nəticəsində Xocavənddə yaralanıb. Zakir Mirzəyev qeyd edib ki, Xocavənddə, Qırmızı Bazar istiqamətində xəsarət alıb. Asim Musayev deyib ki, Kəlbəcərin Söyüdlü yaylağında o və yanında olan şəxslər yaralanıb, 350-dən çox heyvan isə



tələf olub. Atamalı Məlikov bildirib ki, Xankəndi ərazisində yaralanıb, 6 dəfə əməliyyat olunub.

Namiq Həşimov qeyd edib ki, içərisində olduğu təcili tibbi yardım maşını Ağdam istiqamətində atəşə tutulub, nəticədə özü və daha 5 nəfər yaralanıb. Mədət Sabirzadə deyib ki, düşmənin Xocalıda yaralanıb, yanında olan 5 nəfər isə həlak olub. Təhrun Əsgərov söyləyib ki, Ağdərə istiqamətində kəllə-beyin travması alıb. Turan Balaşzadə qeyd edib ki, qardaşı Röyal Balaşzadə Kəlbəcər rayonu istiqamətində həlak olub.

Sadiq Məmmədəli bildirib ki, Kəlbəcər istiqamətində ayağından yaralanıb. Əziz Əzizov deyib ki, o, Xocavənddə kəllə-beyin travması alıb. Bəhlul Ağayev söyləyib ki, Xocavənddə qolundan yaralanıb, bir nəfər isə həlak olub. Fuad Qurbanlı Ağdərə istiqamətində yaralandığını, sağ ayağının dizdən aşağı hissəsinin amputasiya olunduğunu, Xəyal Məsimov və Nurlan Rəfizadə yaralandıqlarını bildiriblər.

Ürfan Məmmədov Xocavəndə qəlpə yarası və kəllə-beyin travması aldığını, 3 yoldaşının həlak olduğunu söyləyib. Pərvin Allahverdiyev Xocavənddə qolundan yaralandığını, Elsevər Axundov Ağdərədə qolundan və ayağından yaralandığını, kəllə-beyin travması aldığını diqqətə çatdırıblar. Nemət Bağırov Daşkəsən ərazisində Xəyal Süleymanovun və Cavidan Bədəlovun həlak olduqlarını, özünün isə yaralandığını deyib. Həsən Məhiyəddinli Ağdərə ərazisində yaralandığını söyləyib.

Radim Qaraxanov bildirib ki, Ağdam rayonunda xəsarətlər alıb. Hacı Bağırov deyib ki, Ağdərə rayonu ərazisində o, Nəsimi Hacıyev və Vüsal İbrahimov xəsarət alıblar. Tural Əzimov və Məhəmməd Bağıyev Ağdam rayonunda, Həzrət İsmayılov isə Ağdərədə yaralandıqlarını söyləyiblər. Qoşqar Şərbətov qeyd edib ki, Xocavənd rayonunda düşmənin təcili tibbi yardım avtomobilinə atdığı mərmi nəticəsində xəsarət alıb.

Digər zərərçəkənlər - Nurəli Şıxaliyev, Rasif Məhərrəmov, Məzahir Əliyev, Amin Məmmədov, Cavid Şirvanov, Müslüm Əliyev, Şahin Səfərov, Ümid İbrahimli, Şəhriyar İsgəndərov, Eldəniz Dadaşov, Əmrah Həsənov, Vüsal Abbaslı, Şirin Həşimov, Kənan Sofiyev, Əmir Nəbiyev, Cəmaləddin Mikayıllı və Kənan Mustafayev düşmənin təxribatı nəticəsində xəsarətlər aldıqlarını bildiriblər.

Sonra zərərçəkən Amid Quliyevin ifadəsi elan edilib. Bildirilib ki, o, düşmənin Xocalı rayonunun Fərrux kəndində hər iki ayağının dizdən aşağı hissəsindən güllə xəsarətləri alıb.

Məhkəmə iclasında zərərçəkmiş şəxslər barəsində olan məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası sentyabrın 9-na təyin olunub.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 186 (30880) 3 sentyabr 2025-ci il, çərşənbə

# Gəncə: Geri sayım başladı!

## *MDB Oyunlarına 4 həftə qaldı*





**Sentyabrın ilk günündə Gəncə həm simvolik, həm də tarixi bir hadisəyə şahidlik etdi. III MDB Oyunlarının rəsmi “Geri sayım” mərasimi minlərlə şəhər sakininin ürəyində qürur, həyəcan və sevinc oyatdı, Gəncənin, Azərbaycanın regionlarının dünya miqyasında yeni bir səhifə açmasından xəbər verdi...**

Tədbirdə Azərbaycan Respublikasının gənclər və idman naziri, Oyunların Təşkilat Komitəsinin sədr müavini Fərid Qayıbov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev və digər rəsmi şəxslər iştirak etdilər.





Adil Tağıyev çıxış edərək bildirdi ki, MDB Oyunlarına hazırlıq çərçivəsində Gəncə şəhəri tamamilə yenilənir. Şəhər stadionu yenidən qurulur, Qafqazın ən böyük idman sarayı inşa edilib. Bu təkcə idman üçün deyil, bütövlükdə şəhərin gələcəyi üçün böyük addımdır.

“Belə mötəbər tədbirin Gəncədə keçirilməsi şəhərimizin tarixinə qızıl hərflərlə yazılacaq,” – deyə Tağıyev vurğuladı.

Nazir Fərid Qayıbov isə çıxışında Gəncə sakinlərini oyunlar zamanı idmançılara güclü dəstək göstərməyə çağırdı: “Artıq geri sayım başlayıb. Bir aydan az vaxt qalıb. Bu oyunlar ilk dəfə regionlarda keçiriləcək və Gəncə bu böyük ailənin ürəyi olacaq”, – deyə, nazir qeyd etdi.

Rəsmi hissədən sonra mərasimin emosional zirvəsi yaşandı: III MDB Oyunlarının rəsmi maskotları – Bəbir və Leyla ictimaiyyətə təqdim olundu. Enerjili, mehriban və simvolik bu maskotlar oyunlara xüsusi rəng qatacaq.

Geri sayım saatı işə salındı və bu saat hər saniyə bizi böyük günə – 28 sentyabra yaxınlaşdırır.

Gecə məşhur ifaçılar Emiliya Yaqubova və Çingiz Mustafayevin iştirakı ilə keçirilən konsert proqramı ilə yadda qaldı. Səhnədən yüksələn hər bir mahnı, alqış sədaları, rəqs edən gənclər bir daha göstərdiki, bu oyunlar təkcə idman yarışı deyil, birliyin, dostluğun və gələcəyə inamın təntənəsidir.

Xatırladaq ki, III MDB Oyunları 28 sentyabr – 8 oktyabr 2025-ci il tarixlərində Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndi şəhərlərində keçiriləcək. Açılış və bağlanış mərasimləri Gəncə Şəhər Stadionunda baş tutacaq.

Azərbaycan artıq neçə-neçə beynəlxalq tədbirə ev sahibliyi edib. Lakin bu dəfə məsələ fərqlidir. Bu dəfə regionlar danışacaq, regionlar parlayacaq!

İndi hər birimizin vəzifəsi budur: meydanda idmançılar mübarizə aparacaq, tribunada isə biz. İnanırıq ki, Gəncə sakinləri və bütün azərbaycanlılar dəstəyimizlə tarix yazacaq.

Hazır olun, geri sayım artıq başlayıb!

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

## İDMAN

### Velosipedçilərimizin tarixi uğuru




**Azərbaycan velosipedçisi Natalya Vallek Türkiyənin paytaxtı Ankarada keçirilmiş “GranFondo” Başkənt velosiped yarışında tarixi nəticə əldə edib. O, Azərbaycan velosiped idmanı tarixinə ilk dəfə “GranFondo” beynəlxalq yarışında birinci yeri tutan idmançı kimi düşüb. Təmsilçimiz 91 kilometr məsafəni əhatə edən yarışda 1300 metr yüksəklik qazanmaqla dağlıq yollardan keçərək finişə hamıdan əvvəl çatıb. Nataliya, həmçinin öz yaş kateqoriyasında 1-ci olub.**

Digər idmançılarımızdan Qolamreza Jamfarsadi (+55 yaş kateqoriyası) 6-cı, Vüqar Salahov (40-44 yaş kateqoriyası) isə 12-ci yeri tutub.

Qeyd edək ki, 1000-ə yaxın velosipedçinin iştirak etdiyi yarışda Azərbaycan məşqçi Musa Mikayılzadənin rəhbərliyi ilə 3 idmançı ilə təmsil olunub.

### Dünya çempionatında yarışacaq boksçularımız




**Azərbaycan Boks Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, ölkəmizi dünya çempionatında təmsil edəcək boksçular müəyyənləşib.**

İngiltərənin Liverpul şəhərində keçiriləcək yarışda Azərbaycanın kişi boksçulardan ibarət komandası tam heyətlə çıxış edəcək.

11 gün davam edəcək çempionatda baş məşqçi Ravşan Xocayev, məşqçilər Nəriman Abdullayev və Etibar Abdullayev Sübhan Mamedov (50 kq), Nicat Hüseynov (55 kq), Məhəmmədəli Qasımzadə (60 kq), Zaur Qəhrəmanov (65 kq), Sərxan Əliyev (70 kq), Səidcəmşid Cəfərov (75 kq), Murad Allahverdiyev (80 kq), Surət Qarayev (85 kq), Alfonso Dominqes (90 kq) və Məhəmməd Abdullayevə (+90 kq) şans verəcəklər.

Qadınların mübarizəsində isə ölkəmizi baş məşqçi İlkin Ağayevin rəhbərliyi altında Aynur Mikayılova (57 kq) təmsil edəcək.

### Millimiz İslandiyaya yola düşüb



**Futbol üzrə Azərbaycan milli komandası 2026-cı il dünya çempionatının seçmə mərhələ oyununda iştirak etmək üçün İslandiyaya yollanıb.**

Sentyabrın 5-də keçiriləcək İslandiya – Azərbaycan görüşü Bakı vaxtı ilə saat 22:45-də başlayacaq. Millimiz sentyabrın 9-da isə Bakıda Tofiq Bəhramov adına Respublika Stadionunda Ukrayna komandasını qəbul edəcək. Oyun saat 20:00-da başlayacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Ürəyin də “yaddaş”ı varmış

**Avstraliyada heyrətamiz hadisə qeydə alınıb. Anadangəlmə ürək qüsuru ilə doğulan 24 yaşlı Devid Voltersin vəziyyəti kəskinləşdiyindən o, ürək transplantasiyası əməliyyatına məruz qalıb.**

Devidin donoru avtomobil qəzasından sonra beyin ölümü keçirən 18 yaşlı Caden Delaney olub. Voltersin həmişə sağlam qidalandığı ailəsinə və yaxın dostlarına məlum idi. Lakin əməliyyatdan sonra o müntəzəm olaraq “fast food” yeməyə keçib.

İlk vaxtlar gənc nə baş verdiyini başa düşməyib. Bir hadisədən sonra hər şey birdən aydınlaşıb. Məlum olub ki, ürəyin əvvəlki sahibi bu yeməyi çox sevirmiş.

Belə ki, ürək transplantasiyasından sonra Devid, əlbəttə ki, ürəyini daşıdığı Caden Delaneyin ailəsi ilə yaxından tanış olub. Uşağın valideynləri və Devid müntəzəm olaraq əlaqə saxlayıblar.

Bir dəfə ürəyin yeni sahibi Cadenin valideynlərindən soruşub: “Təsadüfən Caden “Burger Rings”in pərəstişkarı olub? Əməliyyatdan sonra başqa heç nə yeyə bilmirəm, ayaqlarım məni bu kafeyə aparır”.



Oğlanın valideynlərinin cavabını eşidən Devid şoka düşüb: “Caden hər gün yalnız orada yemək yeyirdi!”.

Bu heyrətamiz fakt üzərində alimlər uzun müddət araşdırma apariblar. Nəhayət düşüncələri təsdiqini tapıb. Müəyyən olunub ki, beyin insan orqanizmində xatirələri saxlaya bilən yeganə orqan deyil.

Alimlərin əllərində artıq 70 sənədləşdirilmiş hal var ki, ürək transplantasiyası əməliyyatı keçirmiş bir xəstə həyat tərzini qəfil dəyişərək donora bənzəyir.

***Z.HÜSEYNLİ***
***XQ***

## Hava

### Aranda isti, dağlarda yağış və dolu



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətdən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 20-24, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 754 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 30-35 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 18-23, gündüz 33-38, dağlarda gecə 13-18, gündüz 20-25 dərəcə isti olacaq

***Q.ƏLİYEV***
***XQ***

*✓ Biləsuvar rayonunun Xırmandalı kənd sakini Cəfərov Mirzə Əli oğluna məxsus avtomobilin AD seriyalı, 559768 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3428
SİFARİŞ 1736
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00